RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 202 (9081) BAZAR, 18 sentyabr 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az

# Azərbaycan qitələri, ölkələri birləşdirir




## Şanxay Əməkdaşlıq Təşkilatının Zirvə görüşündə İlham Əliyevin qlobalmiqyaslı layihələri təqdir edildi

**Əlverişli coğrafi mövqeyindən yararlanaraq mühüm nəqliyyat-tranzit qovşaqlarından birinə çevrilən Azərbaycan Cənubi Qafqazın geoiqtisadi, logistik mərkəzi kimi qəbul edilir. İpək yolu üzərində geniş iqtisadi zolağın yaradılmasının fəal dəstəkçisi olan ölkəmiz müxtəlif istiqamətlərə tranzit daşımalarının səmərəli təşkilinə etibarlı təminat verir.**

Əlbəttə ki, müxtəlif ölkələri birləşdirən nəqliyyat layihəsinin təməlində geosiyasət dayanır və bu layihələr siyasi vəziyyətə təsir edir, sabitliyə töhfə verir. Şərqdən Qərbə və Şimaldan Cənuba uzanan yolun üzərində yerləşən Azərbaycan bu imkanından istifadə etməklə qitələri və ölkələri birləşdirir. Ölkəmizin ərazisindən keçən "Şərq-Qərb", "Şimal-Cənub" və "Cənub-Qərb" beynəlxalq nəqliyyat dəhlizləri Azərbaycanın logistik haba çevrilməsi üçün real imkanlar yaradır.

Azərbaycanın Avrasiyanın əhəmiyyətli nəqliyyat-logistika mərkəzlərindən birinə çevrilməsinə yönəlmiş irimiqyaslı infrastruktur layihələri, ən yeni texnoloji standartlar səviyyəsində Gəmiqayırma Zavodunun istifadəyə verilməsi, 2017-ci ildə Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı və 2018-ci ildə Xəzərdə ən böyük Bakı Beynəlxalq Dəniz Ticarət Limanının istifadəyə verilməsi son illər Azərbaycanda bu istiqamətdə məqsədyönlü strateji planın uğurla reallaşdırılmasının bariz nümunələridir.

Azərbaycan Prezidentinin təşəbbüsü və prinsipial mövqeyi sayəsində tikilən və əhəmiyyətinə görə "Dəmir İpək yolu" adlandırılan Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi Asiya və Avropa dəmir yollarının inteqrasiyasına öz töhfəsini verməkdədir.

→ 2

## Azərbaycan-Ermənistan münasibətləri ilə bağlı fikir mübadiləsi aparıldı



Sentyabrın 17-də Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Telefon söhbəti zamanı regionda davamlı sülhün təmin olunması, gərginliyin aradan qaldırılması, əldə olunmuş atəşkəs razılaşmasının təmin edilməsi və Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılması prosesi ilə bağlı fikir mübadiləsi aparıldı.

***Prezidentin Mətbuat Xidməti***

## Gücün və yüksək döyüş ruhunun təntənəsi

### Azərbaycan Silahlı Qüvvələri gücünü bir daha döyüş meydanında təsdiq etdi

**Bir neçə gündən sonra 44 günlük Vətən müharibəsinin başlanmasının ikinci ili tamam olacaq. Bu savaşı qələbə ilə başa vuran Azərbaycan xalqı dövlətçilik tarixinin ən parlaq və şərəfli səhifələrindən birini yazdı.**

30 ilə yaxın işğal altında olan torpaqlarımız Prezident, Ali Baş Komandan İlham Əliyevin müdrik və qətiyyətli rəhbərliyi ilə cəmi 44 gün ərzində azad edildi. Azərbaycan Silahlı Qüvvələri beynəlxalq hüquq normalarının tələblərinin, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icra olunmasını Ermənistanı cəzalandırmaqla təmin etdi.

### Azərbaycanın yaratdığı reallıqlar

Artıq regionda yeni reallıqlar hakimdir və bu, dünyanın bütün siyasi dairələri tərəfindən qəbul edilir.

→ 3

## Naxçıvan Muxtar Respublikasında düşmənin pilotsuz uçuş aparatı zərərsizləşdirilib

**Ermənistan ordusunun təxribatlarına qarşı Azərbaycan Ordusunun sarsıdıcı zərbələrindən nəticə çıxarmayan Ermənistan silahlı qüvvələri cəbhənin müxtəlif istiqamətlərində kəşfiyyat xarakterli fəaliyyətlərini davam etdirir.**

AZƏRTAC-ın Naxçıvan bürosu xəbər verir ki, Əlahiddə Ümumqoşun Ordunun Mətbuat xidmətinin məlumatına əsasən, sentyabrın 16-sı gündüz saatlarında Naxçıvan Muxtar Respublikasında Əlahiddə Ümumqoşun Ordunun müdafiə mövqeləri üzərində kəşfiyyat xarakterli uçuşlar həyata keçirməyə cəhd edən Ermənistan silahlı qüvvələrinə məxsus pilotsuz uçuş aparatı (PUA) Əlahiddə Ümumqoşun Ordunun Hava Hücumundan Müdafiə bölmələri tərəfindən aşkar olunaraq xüsusi texniki vasitələrlə endirilərək zərərsizləşdirilib.



# Ermənistanın mina terrorçuluğu




→ 6

## Azərbaycanın təhlükəsizlik kəməri qlobal böhranı cilovlamaq məqsədi güdür

**Beynəlxalq münasibətlər sərtləşdikcə, bəzi siyasi problemlərin həlli müharibə müstəvisinə adladıqca onun şahidi oluruq ki, planetimizdə qlobal iqtisadi böhran dərinləşir, ərzaq məhsullarının qiymətləri sürətlə artır və aclıqdan əziyyət çəkən insanların sayı artıq az qala milyarda yaxınlaşır.**

Belə bir vəziyyətdə Azərbaycan kimi müstəqilliyini yeni elan edən dövlət problemlərin həllində müsbət tendensiyaya nail olmaq üçün təbii ki, daha uğurlu iqtisadi siyasət yeritməlidir.

Bu ilin 6 ayının yekunlarına həsr olunan müşavirədə Prezident İlham Əliyev qlobal iqtisadiyyatda tənəzzülün gözlənildiyini və buna hazır olmağın vacibliyini vurğulamışdır. Rəqəmlərə gəldikdə etiraf etmək lazımdır ki, beynəlxalq maliyyə qurumları dünya iqtisadiyyatının artımı ilə bağlı proqnozlarını aşağı salmışdır.

→ 5

## Azərbaycanın enerji ixracı möhkəm bünövrədən saxələnir

### BTC kəmərinin təməlinin qoyulmasından 20 il keçir




→ 5

## "Qarabağ" qürur ünvanımızdır

**Bu gün "Qarabağ" Azərbaycanın ən sevilən futbol klubudur. "Qarabağ"ın uğurları yalnız futbol bayramına çevrilmir, xalqımızın qürur, iftixar mənbəyi kimi qəbul edilir.**

Azərbaycan klubu Avropa Liqasının qrup mərhələsində evdə birinci böyük hesablı qələbəsini qazanaraq avrokuboklar tarixində ilkə imza atıb. Bu ilki komandalarımız arasında "Qarabağ" gerçəkləşdirib.

"Qarabağ"ın Fransanın "Nant" klubu ilə oyununda start fitindən sonra tribunalardakı azarkeşlər telefonlarının işıqlarını yandıraraq birdəqiqəlik sükut edib, sentyabrın 12-13-də Ermənistanın təxribatı nəticəsində şəhid olan hərbçilərimizin xatirəsi yad edilib.

Azərbaycana xoş olmayan münasibət göstərən Fransanın qarşısında "Qarabağ"ın performansı, əslində tutarlı bir mesaj idi.

Əlbəttə ki, hər bir klubun gücü komanda oyunundadır. Son illərdə qazanılan uğurlar məhz bununla bağlıdır.

→ 8

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident.

İcazə verin, Sizə səmimi salamlarımı və dərin ehtiramımı ifadə edim. Xeyirxahlığınıza görə Sizə ürəkdən təşəkkür edirəm.

Məlum olduğu kimi, akademik Zərifə xanım Əliyevanın adını daşıyan məktəbimizə Ukraynadakı hərbi əməliyyatlar zamanı ciddi ziyan dəymişdi. Sizin göstərişinizlə "SOCAR Energy Ukrayna" şirkəti məktəbimizi yeni tədris ilinədək yüksək səviyyədə təmir etdirib. Məhz Sizin sayənizdə şagirdlərimiz təhsillərini gözəl təmir olunmuş sinif otaqlarında davam etdirəcəklər. Böyük sevinc hissi keçirən şagirdlərimizin Sizə və ailənizə dualarını, xoş arzularını çatdırmaqdan məmnunam.

Möhtərəm cənab Prezident, məktəbimizin Naxçıvan Muxtar Respublikasının Kəngərli rayonundakı akademik Zərifə Əliyeva adına Şahtaxtı kənd tam orta məktəbi ilə dostluq əlaqələri var. Fürsətdən istifadə edərək Zərifə xanım Əliyevanın xatirəsinə dərin ehtiramımı bildirirəm.

Cənab Prezident, biz Sizi müdrik dövlət xadimi, doğma xalqına dərindən bağlı bir şəxsiyyət kimi tanıyırıq. Sizə hər zaman böyük qələbələr, möhkəm cansağlığı, rifah arzulayırıq.

*Hörmətlə,*

***Valentina ANTONENKO,***
***Ukraynanın İrpen şəhərindəki akademik Zərifə Əliyeva adına 12 nömrəli tam orta məktəbin direktoru, Ukraynanın Əməkdar müəllimi, "Dostluq" ordeni laureatı***

## "Audiovizual yerüstü yayım həyata keçirən dövlət orqanlarının (qurumlarının) Siyahısı"nın və "Çap mediası subyektinin təsisçisi ola bilən dövlət orqanlarının (qurumlarının) Siyahısı"nın təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Media haqqında" Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununun tətbiqi və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 8 fevral tarixli 1589 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

1. "Audiovizual yerüstü yayım həyata keçirən dövlət orqanlarının (qurumlarının) Siyahısı" təsdiq edilsin *(əlavə olunur)*.

2. "Çap mediası subyektinin təsisçisi ola bilən dövlət orqanlarının (qurumlarının) Siyahısı" təsdiq edilsin *(əlavə olunur)*.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 sentyabr 2022-ci il*

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 17 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir

## Audiovizual yerüstü yayım həyata keçirən dövlət orqanlarının (qurumlarının) Siyahısı

1. "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti - "AzTV" televiziya yayımçısı.
2. "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti - "İdman TV" televiziya yayımçısı.
3. "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti - "Mədəniyyət TV" televiziya yayımçısı.
4. "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti - "Azərbaycan Radiosu" radio yayımçısı.
5. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində olan "İnnovasiyalar Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyət - "ASAN Radio" radio yayımçısı.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin tabeliyində olan "Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyət - "Avto FM" radio yayımçısı.

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 17 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir

## Çap mediası subyektinin təsisçisi ola bilən dövlət orqanlarının (qurumlarının) Siyahısı

| Sıra №-si | Dövlət orqanının (qurumunun) adı |
|---|---|
| 1. | Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi |
| 2. | Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi |
| 3. | Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi |
| 4. | Azərbaycan Respublikasının Müdafiə Nazirliyi |
| 5. | Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi |
| 6. | Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi |
| 7. | Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti |
| 8. | Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti |
| 9. | Azərbaycan Milli Elmlər Akademiyası |
| 10. | Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi |

# Azərbaycan qitələri, ölkələri birləşdirir

## Şanxay Əməkdaşlıq Təşkilatının Zirvə görüşündə İlham Əliyevin qlobalmiqyaslı layihələri təqdir edildi

*Əvvəli 1-ci səh.*

### Azərbaycan regional kommunikasiya layihələrinin işə düşməsinə sanballı töhfələr verib

Sentyabrın 16-da Səmərqənddə Şanxay Əməkdaşlıq Təşkilatına üzv ölkələrin Sammitində çıxış edən Prezident İlham Əliyev Azərbaycanın tranzit və nəqliyyat-logistika imkanları barədə ətraflı məlumat verərək dedi ki, ölkəmiz "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizləri kimi regional kommunikasiya layihələrinin işə düşməsinə sanballı töhfələr verib.

Hazırda Bakı Beynəlxalq Dəniz Ticarət Limanı ildə 15 milyon ton yükaşırma qabiliyyətinə malikdir və bu, ildə 25 milyon tona qədər artırıla bilər. Bu ilin ilk 7 ayında Azərbaycan ərazisindən keçən tranzit 50 faizə yaxın artıb.

Azərbaycan 52 gəmi ilə Xəzər dənizində ən böyük mülki yük donanmasına malikdir. Bakı gəmiqayırma zavodu bütün növ gəmilər istehsal edə bilir.

İlham Əliyev diqqətə çatdırdı ki, son 20 ildə Azərbaycanda 19 min kilometr avtomobil yolu, 1400 kilometr dəmir yolu tikilib və ya əsaslı təmir edilib. Bu gün Azərbaycan 2020-ci il İkinci Qarabağ müharibəsindəki qələbədən sonra işğaldan azad edilmiş ərazilərdə minlərlə kilometr avtomobil yolu və yüzlərlə kilometr dəmir yolu çəkir. Azərbaycan 18 təyyarə ilə regionumuzda ən böyük mülki hava yük donanmalarından birinə malikdir. 2024-cü ilin sonuna qədər ölkədə beynəlxalq hava limanlarının ümumi sayı bugünkü 7-dən 9-a çatdırılacaq.

2020-ci ilin sonunda Qarabağ münaqişəsinin həlli də regionumuzda nəqliyyat-kommunikasiya layihələrinin inkişafı üçün yeni imkanlar yaradıb. Zəngəzur dəhlizi açıldıqdan sonra bu, region ölkələrinin nəqliyyat imkanlarını daha da artıracaq və marşrut boyu yerləşən bütün ölkələr üçün faydalı olacaq.

Bu dəhlizin açılması 10 noyabr üçtərəfli Bəyanatında da öz əksini tapıb. Azərbaycan dəhlizin açılması üçün avtomobil və dəmir yolu layihələrinin icrasını, demək olar ki, yekunlaşdırmaq üzrədir. Lakin Ermənistan bu məsələdə də üzərinə düşən öhdəlikdən boyun qaçırmaqla yenə də öz məkrli oyunlarını oynamaqda davam edir. İlham Əliyev qətiyyətlə vurğulayıb ki, Ermənistan istəsə də, istəməsə də bu dəhliz açılacaq. İlk növbədə isə tərəflər arasında sülh sazişi imzalanmalıdır. Əgər saziş imzalanarsa, dəhlizin təhlükəsizliyinin təminatı da reallaşa bilər.

### Bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür

Sammitdə çıxışı zamanı İlham Əliyev həm də son günlər Ermənistanın dövlət sərhədində törətdiyi təxribatlardan söz açıb. Azərbaycan Prezidenti bildirib ki, düşmənin istənilən təxribatının qarşısı qətiyyətlə alınır və alınacaq.

Qalib komandan bir daha bəyan edib ki, bu cür təxribatların baş verməməsi, hər iki tərəfdən itkilərin olmaması üçün barış müqaviləsinin imzalanması vacibdir. Bunun üçün isə Azərbaycan Ermənistana ölkələrin bir-birinin suverenliyinin və ərazi bütövlüyünün qarşılıqlı tanınmasına əsaslanan sülh müqaviləsi üçün beş əsas prinsip təqdim edib. Tərəflər ilkin şərtlər və süni ləngimələr olmadan sülh sazişi layihəsi üzərində işə başlamalıdır. Azərbaycan hər zaman buna hazır olduğunu bəyan edib. Ermənistan isə təxribatları ilə sazişin imzalanmasını əngəlləməyə çalışır. Elə sentyabrın 12-13-də baş verən təxribat da bunun bariz təcəssümüdür.

Prezident sammit iştirakçılarının diqqətinə bir daha çatdırıb ki, sentyabrın 13-də Ermənistan Azərbaycanla dövlət sərhədində genişmiqyaslı hərbi təxribat törətsə də, Azərbaycan Silahlı Qüvvələri bu təxribatın qarşısını qətiyyətlə alıb. Dövlət başçısı Ermənistanın bu təxribatını iki ölkə arasında normallaşdırma prosesinə böyük zərbə adlandıraraq bəyan edib ki, buna görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

Əlavə edək ki, bu məsələ həmin gün Səmərqənddə İlham Əliyevlə Rusiya Prezidenti Vladimir Putin arasında keçirilən görüşdə də geniş müzakirə mövzusu oldu.

Ermənistan-Azərbaycan sərhədində vəziyyətin kəskinləşməsinin hər kəsi çox narahat etdiyini söyləyən Vladimir Putin dedi ki, əlaqələndirilmiş səylər sayəsində hər halda eskalasiyanı dayandırmaq mümkün olub, lakin vəziyyət gərgin olaraq qalır.

İlham Əliyev vurğuladı ki, döyüş toqquşmaları 8 saatdan az davam edib və dayandırılıb. Artıq atəşkəs rejiminə riayət olunur: "Lakin əsas budur ki, vəziyyəti sabitləşdirmək, onu dinc şəraitə keçirmək mümkün olub. İndi əsas məsələ münasibətlərin başlanmaqda olan normallaşması prosesini pozmamaq, bu istiqamətdə irəliləməkdir. Biz Rusiyanın bu istiqamətdə, o cümlədən Rusiya, Azərbaycan və Ermənistan baş nazirlərinin müavinləri səviyyəsində nəqliyyat kommunikasiyalarına dair üçtərəfli komissiya çərçivəsində, delimitasiya prosesi çərçivəsində səylərini, habelə sülh sazişinə dair danışıqlara başlamaq planlarını alqışlayırıq".

Prezident bir daha vurğulayıb ki, Azərbaycan İkinci Qarabağ müharibəsindən sonra imzalanmış üçtərəfli sənədlərə sadiqdir və ölkəmiz Qafqazda vəziyyətin sabit olması üçün nə lazımdırsa edəcək.

### Azərbaycanla regional əməkdaşlığın inkişaf etdirilməsi xüsusi maraq doğurur

Şanxay Əməkdaşlıq Təşkilatı 2001-ci ildə Qazaxıstan, Çin, Qırğızıstan, Rusiya, Özbəkistan və Tacikistan tərəfindən Şanxayda təsis olunub. Təşkilatın əsas məqsədləri üzv dövlətlər arasında qarşılıqlı etimad və qonşuluq münasibətlərinin gücləndirilməsi; siyasət, ticarət və iqtisadiyyat, elm və texnologiya, mədəniyyət, o cümlədən təhsil, enerji, nəqliyyat, turizm, ətraf mühitin qorunması və digər sahələrdə effektiv əməkdaşlığın inkişaf etdirilməsi, regionda sülh, təhlükəsizlik və sabitliyin əldə edilməsi üçün birgə səylərin göstərilməsi, yeni siyasi və iqtisadi beynəlxalq düzənin yaradılması üçün addımların atılmasından ibarətdir.

Azərbaycan hazırda ŞƏT-də dialoq tərəfdaşı statusuna sahibdir. 2016-cı ildə Azərbaycan ilə ŞƏT arasında əməkdaşlıq sahələrini əks etdirən memorandum imzalanıb. ŞƏT ilə əməkdaşlıq istiqamətləri arasında təşkilatın ənənəvi prioritet sahələri olan və Azərbaycan üçün xüsusi əhəmiyyət kəsb edən terrorizm, ekstremizm və separatizm ilə mübarizə, regional təhlükəsizliyin və sabitliyin təminatı müəyyənləşdirilib. Həmçinin ölkəmizin beynəlxalq müstəvidə mühüm rol oynadığı sivilizasiyalararası dialoq, multikulturalizm və tolerantlığın təşviqi sahələri də diqqət mərkəzində olan məsələlərdəndir.

İlham Əliyev Səmərqənddə keçirilən sammitdə Azərbaycana dost və qardaş, strateji tərəfdaş olan Özbəkistanın Prezidenti Şavkat Mirziyoyevin dəvəti ilə fəxri qonaq qismində iştirak edirdi. Bu dəvət Azərbaycan-Özbəkistan münasibətlərinin dərin məzmununu, hər iki dövlətin prezidentləri arasındakı dostluq münasibətlərini ifadə etməklə yanaşı, İlham Əliyevin qlobal və regional nüfuzunun əyani təzahürüdür. Elə sammitdəki çıxışından sonra Prezident İlham Əliyevə təşəkkür edən Şavkat Mirziyoyev qeyd edib ki, ilk növbədə nəqliyyat-kommunikasiya və iqtisadi-ticari sahələrdə Azərbaycan ilə regional əməkdaşlığın inkişaf etdirilməsi onlar üçün xüsusi maraq doğurur.

Bütün bunlar onu deməyə əsas verir ki, İlham Əliyevin qlobalmiqyaslı təşəbbüsləri, qlobal layihələri Azərbaycanın dost və strateji tərəfdaş ölkələri ilə münasibətlərinə əsaslı töhfələr verir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

## Azərbaycan nümayəndə heyətinin ABŞ-a səfəri başa çatıb

Məlumat verildiyi kimi, sentyabrın 12-16-da Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) İdarə heyətinin sədri Vüqar Süleymanovun rəhbərlik etdiyi nümayəndə heyəti ABŞ-a səfər edib. ANAMA ilə yanaşı, nümayəndə heyətinə Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının nəzdindəki İdarələrarası Mərkəzin Katibliyi və Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin əməkdaşları daxil olub. AZƏRTAC xəbər verir ki, səfər çərçivəsində nümayəndə heyəti Nyu York şəhərində BMT-nin mənzil-qərargahında təşkilatın katibliyinin yüksəkrütbəli rəsmiləri, o cümlədən Mina Fəaliyyəti Xidmətinin (UNMAS) direktoru ilə görüşüb.

ABŞ-ın paytaxtı Vaşinqtonda nümayəndə heyəti Dövlət Departamenti, Müdafiə Departamenti (Pentaqon), ABŞ Beynəlxalq İnkişafa Yardım Agentliyi (USAID), Müdafiə və Təhlükəsizlik Əməkdaşlığı Agentliyinin yüksəkrütbəli rəsmiləri, habelə ABŞ Konqresinin aparıcı üzvləri ilə çoxsaylı görüşlər keçirib.

Bununla yanaşı, nümayəndə heyəti mina fəaliyyəti sahəsində ixtisaslaşmış Marşal İrsi İnstitutu (MLI), Mina Məsləhət Qrupu ("Mines Advisory Group America") direktorları ilə məhsuldar müzakirələr aparıb. Dünya Bankının mənzil-qərargahında keçirilmiş görüş zamanı da minatəmizləmə və inkişaf məsələləri müzakirə edilib.

Keçirilmiş görüşlər zamanı ölkəmizin üzləşdiyi kütləvi mina problemi, minaların insanların həyatına törətdiyi təhdidlər, məcburi köçkünlərin öz yurduna qayıtması və bərpa-quruculuq işlərinin gedişatına yaratdığı maneələr, bu təhdid və maneələrin aradan qaldırılması, humanitar minatəmizləmə sahəsində əməkdaşlıq və yardımın genişləndirilməsi istiqamətində məhsuldar müzakirələr aparılıb.

Görüşlər zamanı həmçinin minaların törətdiyi təhdidlərin aradan qaldırılması regionda sülhə və sabitliyə töhfə verən vacib amil kimi vurğulanıb.

Səfər çərçivəsində, həmçinin ABŞ-ın nüfuzlu tədqiqat mərkəzlərinin nümayəndələrinin iştirakı ilə Azərbaycanın ABŞ-dakı səfirliyində ölkəmizdəki mina probleminə həsr edilmiş "dəyirmi masa" təşkil edilib. Görüşdə kütləvi şəkildə minalanmış ərazilərin təmizlənməsi, həmçinin yenidənqurma və bərpa işləri istiqamətində Azərbaycan hökuməti tərəfindən aparılan fəaliyyət və tətbiq edilən idarəetmə modeli, beynəlxalq resursların cəlb olunmasının önəmi və tərəfdaşlığın əhəmiyyəti qeyd edilib.

Həmçinin ABŞ Konqresində italiyalı fotoqraf Fabrisio Kontinin müəllifi olduğu işğaldan azad edilmiş ərazilərimizin təsvirlərini, bu ərazilərdə həyata keçirilən minatəmizləmə fəaliyyətini əks etdirən və mövzunun müxtəlif aspektlərinə dair çıxışlarla müşayiət olunan "Agdam Delenda est" adlı tədbir də keçirilib.

## Böyük Britaniyanın Dövlət naziri Ermənistanın son təxribatları barədə məlumatlandırılıb

**Sentyabrın 17-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramovun Böyük Britaniyanın Avropa regionu üzrə Dövlət naziri Leo Dokerti ilə telefon danışığı olub.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, telefon danışığı zamanı tərəflər Ermənistanın təxribatları nəticəsində bölgədə yaranmış gərgin vəziyyəti müzakirə ediblər.

Ceyhun Bayramov sentyabrın 12-dən etibarən Ermənistanın Azərbaycan Silahlı Qüvvələrinin mövqelərini atəşə tutması və hücumları nəticəsində 79 hərbi qulluqçumuzun həlak olduğunu, bölgədə yaranmış gərginliyə görə məsuliyyətin Ermənistan üzərinə düşdüyünü diqqətə çatdırıb. Ermənistanın 44 günlük Vətən müharibəsindən sonra əldə olunmuş razılıqlar çərçivəsində öhdəliklərə riayət etməməsi, habelə postmünaqişə dövründə normallaşma prosesinə yaratdığı maneələr və silsilə təxribatlar barədə məlumat verilib.

Hazırda atəşkəsə əməl olunduğu, Ermənistanın təxribatlardan çəkinməsinin və iki dövlət arasında məsələlərin danışıqlar yolu ilə həll edilməsinin əhəmiyyəti vurğulanıb. Azərbaycanın sülh gündəliyini irəlilədən və bölgədə yenidənqurma işləri aparan bir dövlət kimi Ermənistan ilə siyasi-diplomatik müstəvidə normallaşma prosesində maraqlı olduğu nazir tərəfindən diqqətə çatdırılıb.

Böyük Britaniyanın Avropa regionu üzrə Dövlət naziri Leo Dokerti öz növbəsində yaranmış vəziyyətə görə narahatlığını ifadə edib, Azərbaycanın hərbi qulluqçularının həlak olmasına görə başsağlığı bildirib, hazırda atəşkəsə əməl olunmasından məmnunluğunu vurğulayıb. Sabitliyin təmin olunacağına və Azərbaycanla Ermənistan arasında normallaşma prosesinin davam edəcəyinə ümidvar olduğunu diqqətə çatdırıb.

Sonra tərəflər Azərbaycan-Böyük Britaniya ikitərəfli əməkdaşlığının gündəliyində duran məsələlər üzrə fikir mübadiləsi aparıblar.

## 32 erməni hərbçisinin meyiti qarşı tərəfə təhvil verilib

Azərbaycan 32 erməni hərbçisinin meyitini qarşı tərəfə təhvil verib. Bu barədə AZƏRTAC-a Azərbaycan Respublikası Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasından məlumat verilib.

"Məlum olduğu kimi, cari il sentyabrın 12-14-də Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan-Ermənistan sərhədində genişmiqyaslı təxribat törədilib. Ordumuzun həyata keçirdiyi cavab tədbirləri nəticəsində qarşı tərəf xeyli sayda itki verib. Həmçinin bildiririk ki, hərbi əməliyyatlardan sonra bizim nəzarətimizə keçmiş ərazilərdə aşkarlanmış 32 Ermənistan hərbi qulluqçusunun meyitinə Azərbaycan Respublikasının Hərbi Prokurorluğunun aidiyyəti əməkdaşları ilə birlikdə baxış keçirilib və onların üzərində hər hansı zorakılıq əlamətlərinin olması müəyyən edilməyib. Sentyabrın 17-də həmin meyitlər qarşı tərəfə təhvil verilib.

Hazırda Ermənistan hərbçilərinə aid digər meyitlərin müayinəsi aparılır və yaxın zamanlarda onlar da təhvil veriləcək", - deyə komissiyanın məlumatında bildirilib.

## Nazir Ceyhun Bayramov kanadalı həmkarını Ermənistanın genişmiqyaslı təxribatları barədə məlumatlandırıb

Sentyabrın 17-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə Kanadanın xarici işlər naziri Melani Joli arasında telefon danışığı baş tutub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazir Ceyhun Bayramov Ermənistan silahlı qüvvələrinin Azərbaycan-Ermənistan sərhədboyu ərazilərində genişmiqyaslı təxribatları barədə məlumat verib və yaranmış vəziyyətdən Azərbaycan tərəfinin ciddi narahatçılığını qarşı tərəfin diqqətinə çatdırıb. Ermənistanın məqsədyönlü təxribatlarının və normallaşma prosesinə maneələrinin silsilə xarakteri daşıdığı, son təxribatlarda 79 hərbi qulluqçumuzun həlak olduğu vurğulanıb.

Nazir Azərbaycanın beynəlxalq hüququn norma və prinsiplərini, dövlətlərin suverenliyi və ərazi bütövlüyünü daim dəstəklədiyi və son 30 il ərzində keçmiş münaqişənin məhz bu prinsiplər əsasında həllini dəstəklədiyi barədə məlumat verib. Azərbaycanın bölgədə yenidənqurma işləri həyata keçirdiyi və külli miqdarda sərmayələr qoyduğu, məcburi köçkünləri öz yurdlarına qaytardığı bir dönəmdə vəziyyətin gərginləşməsində maraqlı olmadığı və Ermənistan ilə normallaşma prosesini irəlilədən tərəf olduğu bildirilib.

Kanada xarici işlər naziri Melani Joli bölgədə gərginlikdən narahatlığını diqqətə çatdırıb, atəşkəsə əməl olunmasının əhəmiyyətini bildirib. Sabitliyin təmin olunmasının və Azərbaycanla Ermənistan arasında normallaşma prosesinin davam etməsinin vacib olduğunu vurğulayıb. Minasızlaşdırma səylərinin əhəmiyyəti diqqətə çatdırılıb.

## *MN:* "Ermənistanın son təxribatının qarşısını alarkən ordumuzun 282 hərbi qulluqçusu yaralanıb"

Sentyabrın 12-14-də Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribatının qarşısını alarkən Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 282 hərbi qulluqçusu yaralanıb və müxtəlif dərəcəli bədən xəsarətləri alıb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, yaralanan 282 hərbi qulluqçulardan 43 nəfər ilkin tibbi yardımdan sonra ordu sıralarına qayıdıb, 115 nəfərin vəziyyəti kafi, 103 nəfər orta-ağır, 21 nəfərin vəziyyəti isə ağır olaraq qiymətləndirilir.

Eyni zamanda Ermənistan silahlı qüvvələrinin təxribatı nəticəsində Azərbaycan tərəfindən 2 mülki şəxs də yaralanıb. Yaralanan mülki şəxsdən 1 nəfər ilkin tibbi yardımdan sonra evə buraxılıb, 1 nəfərin vəziyyəti isə orta-ağır qiymətləndirilir.

Qeyd olunmalıdır ki, yaralanmış hərbi qulluqçulara ən peşəkar hərbi-həkim heyəti və digər tibb personalları tərəfindən xidmət göstərilir.

## *Baş Prokurorluq:* "Foto və videogörüntülərlə bağlı araşdırma başlanılıb"

Cari il sentyabrın 12-14-də Ermənistan silahlı qüvvələrinin Azərbaycan-Ermənistan dövlət sərhədinin Daşkəsən, Kəlbəcər, Laçın və Zəngilan rayonları istiqamətində törətdiyi genişmiqyaslı təxribatın və ölkəmizin ərazisinə və suverenliyinə qarşı hərbi təhlükələrin qarşısının alınması ilə əlaqədar Azərbaycan Silahlı Qüvvələri tərəfindən zəruri tədbirlər görülməklə həmin qanunsuz əməllərin qarşısı qətiyyətlə alınıb.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, həmin ərəfədə bəzi sosial şəbəkələrdə Azərbaycan hərbi qulluqçuları tərəfindən erməni silahlı birləşmələrinin üzvlərinin meyitlərinə qarşı qanunsuz əməllərə yol verilməsi, habelə saxlanılmış təxribatçılara qarşı qeyri-insani rəftar göstərilməsinin iddia olunduğu görüntülər paylaşılmışdır.

Azərbaycan Respublikasının Hərbi Prokurorluğu tərəfindən bu kateqoriyadan olan videolar üzrə onların həqiqi olub-olmaması, habelə videolardakı görüntülərin çəkildiyi zaman və məkan, onlarda əks olunan hərbi qulluqçuların şəxsiyyəti, eləcə də obyektiv həqiqətin müəyyən edilməsi üçün əhəmiyyət kəsb edən digər bütün hallar tam və hərtərəfli araşdırılır.



# Gücün və yüksək döyüş ruhunun təntənəsi

## Azərbaycan Silahlı Qüvvələri gücünü bir daha döyüş meydanında təsdiq etdi

*Əvvəli 1-ci səh.*

Azərbaycanın yürütdüyü siyasət Ermənistanı yeni reallıqların tələblərini, üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməyə məcbur edir. Bu öhdəliklər isə həm bəyannamələrdə təsbit olunub, həm də üçtərəfli görüşlərdə razılaşdırılıb. Regionda nəqliyyat əlaqələrinin bərpası, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında kommunikasiyaların yaradılması, sərhədlərin dəqiqləşdirilməsi Ermənistanın üzərinə götürdüyü öhdəliklərdir.

Lakin görünən odur ki, Ermənistan zaman-zaman hərbi təxribatlar törətməklə həm üzərinə götürdüyü öhdəliklərin yerinə yetirilməsindən boyun qaçırır, həm də razılaşdırılmış məsələlərin icrasını yerinə yetirmək istəmir. İndiyədək bir neçə dəfə baş vermiş hərbi toqquşmalar bunu təsdiq edir. Qeyd edək ki, Prezident İlham Əliyev bununla bağlı Ermənistana xəbərdarlıqlarını bildirib. Hələ ötən ilin sentyabrın 27-də Anım günü ilə əlaqədar xalqa müraciətində Prezident İlham Əliyev demişdi: "Erməni faşizmi məhv edilib, ancaq onun təzahürləri görünməkdədir. Bu, çox təhlükəli tendensiyadır, ilk növbədə Ermənistan dövləti üçün. Mən bunu demişəm, bu gün Anım günündə şəhidlərimizin əziz xatirəsi önündə bir daha deyirəm, əgər biz görsək ki, erməni faşizmi baş qaldırır, əgər biz görsək ki, xalqımıza, dövlətimizə yeni təhlükə mənbəyi yaranır, heç tərəddüd etmədən erməni faşizminin başını bir daha əzəcəyik. Bunu hər kəs bilsin! Müharibənin və Qələbənin rəmzi olan "dəmir yumruq" yerindədir, bunu heç kim unutmasın!"

Ötən ilin noyabr ayında dövlət sərhədinin Kəlbəcər və Laçın rayonları istiqamətində baş verənlər Prezident İlham Əliyevin xəbərdarlığından dərs çıxarmaq istəməyən Ermənistan üçün dərs oldu. Həmin vaxt Azərbaycan Ordusunun döyüş postlarına hücum edən erməni hərbi birləşməsinə qarşı təxirəsalınmaz əməliyyat həyata keçirildi. Darmadağın edilərək geri otuzdurulan düşmənin təxribat planı iflasa uğradı, erməni hərbçiləri tərk-silah edilərək saxlanıldılar, ordumuz tərəfindən xeyli sayda silah və sursat qənimət götürüldü.









### Ermənistanın təxribatı özünə baha başa gəlir

Avqustun 3-də keçirilən uğurlu "Qisas" əməliyyatı bir daha göstərdi ki, Azərbaycan Ordusu Ermənistanın istənilən təhdidinin qarşısını qətiyyətlə alacaq. Bir daha təsdiq olundu ki, "dəmir yumruq" istənilən an düşmənin başını əzməyə hazırdır. Ordu bölmələrinin keçirdiyi "Qisas" əməliyyatı nəticəsində Qırxqız yüksəkliyi, həmçinin Kiçik Qafqaz dağ sisteminin Qarabağ silsiləsi boyu Sarıbaba və bir sıra digər əhəmiyyətli hakim yüksəkliklər nəzarətə götürüldü, şəhidimiz Anar Kazımovun qisası alındı.

Ümumiyyətlə, bütün baş verənlər Ermənistanın münasibətlərin normallaşdırılmasında maraqlı olmadığını, üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməkdən boyun qaçırdığını göstərir. Məlum olduğu kimi, aparılan danışıqlara rəğmən, Ermənistanın siyasi dairələri uzun müddətdir beynəlxalq aləmdə Azərbaycana qarşı kampaniya aparırlar. Sülh danışıqları, kommunikasiyaların açılması, ümumilikdə regionda təhlükəsizliyin təmin olunması istiqamətində irəli sürülən bütün təşəbbüslər və atılan addımlar müxtəlif bəhanələrlə Ermənistan tərəfindən sabotaj olunmaqdadır.

Avqustun 31-də keçirilmiş Brüssel görüşündəki bir sıra vacib məsələlərin, o cümlədən sülh sazişi ilə bağlı işlərin davam etdirilməsinin razılaşdırılmasına baxmayaraq, sonrakı günlərdə Ermənistan bunun ziddinə olan fəaliyyət ortaya qoydu. Belə ki, sentyabr ayında Azərbaycan Ordusunun mövqelərinin Ermənistan ərazisindən atəşə tutulması davamlı hal almışdı. Bu yaxınlarda Rusiyanın Vladivostok şəhərində keçirilən Şərq İqtisadi Forumundakı çıxışında isə Ermənistanın baş naziri Nikol Paşinyan faktiki olaraq yeni hərbi qarşıdurma iddiası səsləndirdi və bu açıqlama sentyabrın 12-də başlanan gərginliyin siyasi anonsu oldu.

### "Düşməni öhdəliklərini yerinə yetirməyə məcbur edəcəyik"

Sentyabrın 12-də gecə saatlarında Ermənistan ordusunun diversiya qruplarının sutkanın qaranlıq vaxtında ərazinin dağlıq relyefi və mövcud dərə boşluqlarından istifadə edərək müxtəlif istiqamətlərdə Azərbaycan Ordusunun bölmələrinin mövqeləri arasındakı əraziləri və təminat yollarını minalamaları, Ermənistanın Basarkeçər, İstisu, Qarakilsə və Gorus yaşayış məntəqələri istiqamətindən ordumuzun Daşkəsən, Kəlbəcər və Laçın rayonları ərazisindəki mövqelərinin, sığınacaqlarının və dayaq məntəqələrinin müxtəlif çaplı silahlar, o cümlədən minaatanlardan intensiv atəşə tutmaları düşmənə baha başa gəldi. "Dəmir yumruğ"un qətiyyətli cavabı nəticəsində Ermənistan ordusunun atəş nöqtələri darmadağın edildi. Qəhrəman ordumuz tərəfindən düşmənin təxribat əməliyyatlarına cəlb olunmuş canlı qüvvəsi və döyüş texnikası ciddi itkilərə məruz qaldı.

Bu döyüşlər bir daha Azərbaycan Ordusunun gücünün, döyüş ruhunun təntənəsi oldu. Dəfələrlə edilən xəbərdarlıqlardan nəticə çıxarmayan İrəvan yenidən "dəmir yumruğ"un zərbəsini hiss etdi. Azərbaycan Ordusu üstünlüyünü bir daha döyüş meydanında sübuta yetirdi.

Eyni zamanda bu hadisə Azərbaycan dövlətinin beynəlxalq birlikdəki mövqelərinin nə qədər möhkəm olduğunu bir daha nümayiş etdirdi. Çünki Ermənistan nə qədər cəhd etsə də, bu hadisələr zamanı beynəlxalq miqyasda özünə dəstək qazana bilmədi. N.Paşinyan gecə saatlarında telefonlardan sallanaraq ora-bura zənglər etsə də, heç nəyə nail ola bilmədi. Ermənistan üzvü olduğu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını da öz təxribatçı oyunlarına alət edə bilmədi.

Bir neçə gün əvvəl baş verən döyüşlər tarixə Azərbaycan dövlətinin gücünün növbəti təcəssümü kimi həkk olundu. Sübut olundu ki, Ermənistan hərbi təxribatlarla heç nəyə nail ola bilməyəcək və Azərbaycan onu üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməyə məcbur edəcək.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Şanlı Azərbaycan Ordusu yenilməzdir

**İki il öncə işğalçı Ermənistanın biabırçı məğlubiyyəti ilə başa çatan 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusunun şanlı qələbəsi ilə Qarabağ və ətraf rayonlar işğaldan azad edildi, ölkəmizin ərazi bütövlüyü təmin olundu. Bunu həzm edə bilməyən ermənilər və ermənipərəst qüvvələr dövlətimizin getdikcə güclənməsindən, beynəlxalq aləmdəki böyük uğurlarından, habelə işğaldan azad edilmiş ərazilərdə aparılan möhtəşəm tikinti, quruculuq və bərpa işlərindən, ümumiyyətlə, Qarabağın dirçəlişindən təşvişə düşərək növbəti dəfə - sentyabrın ikinci ongünlüyündə öz çirkin niyyətlərini yenidən davam etdirdilər.**



Sentyabrın 12-si gecə saatlarından başlayaraq Ermənistan silahlı qüvvələrinin diversiya qruplarının Azərbaycan-Ermənistan dövlət sərhədinin Daşkəsən, Kəlbəcər, Laçın və Zəngilan istiqamətlərində genişmiqyaslı təxribatlar törətdilər. Əsgər və zabitlərimizin gücünə tab gətirə bilməyərək mülki əhalini hədəfə aldılar. Şəhidlərimiz oldu. Bütün bunlara baxmayaraq, Müzəffər Azərbaycan Ordusu ermənilərin çirkin niyyətlərini alt-üst etdi. Çoxlu itki verən ermənilər son anda qaçıb canlarını qurtarmağa çalışdılar. Sərhədboyu Azərbaycan Ordusu üçün təhdid yaradan Ermənistanın hərbi bazaları, qurğu və hərbi texnikaları məhv edildi. Erməni hücumlarından, erməni vandalizmindən xalqımızı qoruyan, ictimaiyyətə döyüş uğurlarımızın qələbə qürurunu yaşadan isə Prezident, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyev və Azərbaycan Ordusudur.

O ordu ki, bu gün dünyanın 50-dən artıq ölkəsində ən modern bir ordu hesab edilir. Ermənilər artıq anlayırlar ki, Azərbaycan Ordusu 15-20 il bundan əvvəlki ordu deyil. Prezident İlham Əliyevin diqqəti, qayğısı və rəhbərliyi ilə son illər həyata keçirilən kompleks islahatlar nəticəsində Azərbaycan Ordusu Cənubi Qafqazın ən güclü ordusuna çevrilib. 2003-cü ildən indiyə qədər Azərbaycanın hərbi büdcəsi 15 dəfə artıb. Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasında öz nüfuzlu mövqeyini daha da artırıb. Ordumuzun gücü, döyüş qabiliyyəti, peşəkarlığı və ən əsası, zabit və əsgərlər arasında döyüş ruhunun daim yüksək olması reallığı həm də hərb elminə yeniliklər gətirib.

Neçə il bundan öncə ölkəmizdə ordu quruculuğunun yeni mərhələsinin başlandığını elan edən Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında bildirmişdir ki, biz öz hərbi qüdrətimizi artırırıq və artıracağıq: "Azərbaycan Ordusu dünya miqyasında 50 ən güclü ordu sırasındadır və beynəlxalq reytinqlər də, həyat da bunu göstərir, bizim hərbi uğurlarımız da buna dəlalət edir. Eyni zamanda bu il Bakıda iki dəfə möhtəşəm hərbi parad keçirilmişdir və bu paradlarda bizim hərbi qüdrətimiz həm xalqımıza, həm dünyaya nümayiş etdirilmişdir. Bu gün Azərbaycan Ordusu ən müasir silahlarla, texnika ilə təchiz edilib, bu proses davam etdirilir. Biz bundan sonra da ən müasir hərbi texnikanı alacağıq, yeni kontraktlar imzalanır. Əvvəlki illərdə imzalanmış kontraktlar əsasında ən müasir silahlar ölkəmizə gətirilir, onların bir hissəsi hərbi paradlarda göstərilib, bir hissəsi göstərilməyib".

Ordu quruculuğundakı digər mühüm prinsipial siyasət ölkənin hərbi sənayesinin yaradılması ilə bağlıdır. Məhz bu amili vaxtında dəyərləndirən Prezident İlham Əliyev müharibə vəziyyətində yaşayan respublikamızın Silahlı Qüvvələrinin maddi-texniki bazasını milli məhsullar hesabına daha da gücləndirmək məqsədilə 2005-ci ildə Müdafiə Sənayesi Nazirliyini yaratdı. Həmin dövrdən başlayaraq nazirliyin müəssisələrində silah-sursat və hərbi vasitələrin istehsalının genişləndirilməsi və keyfiyyətinin daha da yaxşılaşdırılması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Bu gün nazirliyin tərkibində müdafiə sənayesi müəssisələrinin sayı 58-ə, istehsal məmulatlarının çeşidi 1200-ə çatıb. Bu illər ərzində nazirliyin müəssisələrində ümumi məhsul istehsalının həcmi 6,7 dəfə, müdafiə təyinatlı məmulatların həcmi 42 dəfə artıb. Ən mühümü odur ki, Azərbaycan dövləti artıq istehsal etdiyi silahlarını xaricə ixrac edir. Artıq 10 ölkə Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin istehsal etdiyi məhsulları öz silahlı qüvvələrində istifadə etmək, hərbi güclərini artırmaq üçün alır. Son 10 ildə hərbi məhsullarımızın ixrac həcmi 2,7 dəfə çoxalıb. Son illər dörd hərbi zavod istehsala başlayıb. 2017-ci ildə respublikanın güc strukturlarına təhvil verilmiş müdafiə təyinatlı məmulatların həcmi 2016-cı illə müqayisədə 7,3 faiz artıb.

Müdafiə sənayesinin davamlı olaraq böyüməsi ilə respublikamız xarici ölkələrin silah-sursat asılılığından azad olur. Bu, müharibə aparan ölkə üçün çox önəmli amildir. Azərbaycan MDB məkanında dörd ölkədən biridir ki, onun müasir tələblərə cavab verən müdafiə sənayesi mövcuddur. Eyni zamanda qürurverici haldır ki, bu gün ölkəmiz həm də ən müasir silahların ixracatçısıdır. Prezident İlham Əliyev bu barədə demişdir: "Bu gün biz hərbi texnikanın istehsalı işində uğurla inkişaf edirik. Azərbaycanda mindən çox adda hərbi təyinatlı məhsul istehsal olunur. Hərbi texnikanın, sursatların istehsalı ilə bağlı bizim yeni planlarımız var və biz onları da həyata keçirəcəyik. Bir sözlə, bu gün ölkəmizin hərbi potensialı ən yüksək səviyyədədir. Ordumuzun döyüş qabiliyyəti də yüksək səviyyədədir. Bizim ordumuz bunu döyüş meydanında da göstərib və nümayiş etdirib".

Bütün bunlara baxmayaraq, Ermənistan hakimiyyəti ölkəsində hərbi səfərbərlik elan edərək sərhəd bölgələrimizdə yenidən təxribatlar törətməyə, genişmiqyaslı hücumlar həyata keçirməyə çalışır. Ermənistan hakimiyyəti birmənalı şəkildə bilməlidir ki, Azərbaycan Ordusu bu gün ən çətin döyüş tapşırıqlarını yerinə yetirməyə qadir qüvvədir. Bu, 44 günlük Vətən müharibəsindəki tarixi qələbədən sonra, eləcə də bu günlərdə erməni silahlı birləşmələrinin Azərbaycan-Ermənistan dövlət sərhədinin Daşkəsən, Kəlbəcər, Laçın və Zəngilan istiqamətlərində genişmiqyaslı təxribatlarının qarşısı alınarkən bir daha öz təsdiqini tapdı. Dünyanın ən güclü orduları sırasında yer alan, mükəmməl döyüş taktikası ilə yeni nəsil müharibə nümunəsi göstərən Silahlı Qüvvələrimiz 30 ilə yaxın erməni işğalı altında olan torpaqlarımızın azadlığı uğrunda gedən 44 günlük Vətən müharibəsində olduğu kimi, bu gün də, sabah da istənilən yadelli qüvvələrə layiqli cavab verməyə qadirdir. Çünki şanlı Azərbaycan Ordusu yenilməzdir.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# ŞƏHİDLƏR ölməz, VƏTƏN bölünməz!

## Şəhid atası və yaralı mülki şəxs xəstəxanada ziyarət edilib




**Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov Ermənistan silahlı qüvvələri bölmələrinin törətdikləri təxribat nəticəsində yaralanan Asim Musayevi və Vətən müharibəsi şəhidi Məmmədov Elnur İsrafil oğlunun atası İsrafil Məmmədovu xəstəxanada ziyarət edib.**

Şəhər rəhbərinə hər iki xəstənin səhhəti ilə bağlı məlumat verilib. Bildirilib ki, Asim Musayev mərmi partlayışı zamanı sol ayağından qəlpə yarası alıb. İlkin yardım göstərildikdən sonra xəstəxanaya yerləşdirilib. Vəziyyətinin ağır olmasına baxmayaraq, həkimlərin səyi nəticəsində ayağını amputasiyadan xilas etmək mümkün olub. Hazırda Asim Musayevin vəziyyəti stabildir.

Poliorqan və xroniki obstruktiv ağciyər xəstəliyindən əziyyət çəkən şəhid atası İsrafil Məmmədovun da vəziyyətinin qənaətbəxş olduğu diqqətə çatdırılıb.

Niyazi Bayramov onları ayrı-ayrılıqda ziyarət edib və şəfa diləyib. Şəhər rəhbəri onlara müvafiq kömək göstərilməsi barədə aidiyyəti üzrə tapşırıqlar verib.

Həmin gün Niyazi Bayramov Ermənistan silahlı qüvvələri tərəfindən sərhəddə törətdikləri təxribat nəticəsində yaralanan hərbçilərimizin ailələrini də ziyarət etmişdir.

Şəhər rəhbərliyi Azərbaycan Ordusunun hərbi qulluqçuları Sərxan Fərəcov və Xəyal Hacıyevin, həmçinin əsgər Ələsgər Xasıyevin ailə üzvləri ilə görüşüb, söhbət etmişdir.

Niyazi Bayramov hərbi qulluqçularımızın ailə üzvlərinin qayğıları ilə maraqlanmış, onları narahat edən məsələlərin qısa müddət ərzində həll edilməsi üçün müvafiq tapşırıqlar vermişdir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## "Bu Vətənə bir yox, min Cəmil qurban olsun!"



**Ermənistan silahlı qüvvələrinin son təxribatlarını qəhrəmancasına dəf edərək şəhid olanVətən övladlarından biri də Cəmil Qurbanzadədir. O, Astara şəhərində doğulub. Vətənpərvər ruhda böyüyüb.**

Laçın istiqamətində düşmənin təxribatlarının qarşısını alarkən şəhadətə ucalıb. Şəhid Cəmil Qurbanzadənin atası Anar Qurbanzadə bildirdi: "Üç övladım var. Böyüyü şəhidimiz Cəmil Qurbanzadədir. Ondan sonra iki qızım var. Evin tək oğlu idi. Oğlumla bir neçə gün bundan əvvəl axşam saatlarında danışmışdım. Laçın rayonunda xidmət edirdi. Sonuncu dəfə danışanda söylədi ki, narahat olmayın, hər şey yaxşıdır. Mən hələ körpəliyindən Cəmili haqq-ədalət ruhunda tərbiyə etmişəm, ona demişəm ki, torpağıma kim girsə, o mənim düşmənimdir. Fərqi yoxdur, mənim torpağıma girən ermənidir, ya da başqası! Cəmil bu gün erməninin üstünə gedibsə, deməli, o təyin edib ki, onun düşməni ermənidir. Mən özüm də vətənpərvər insanam. Övladlarımı da bu ruhda tərbiyə etmişəm. Bu torpağa canım qurban. Mənim oğlum Cəmil bu torpaq uğrunda şəhid olub, Vətənim sağ olsun! Bir Cəmil yox, min Cəmil fəda olsun bu torpağa! Yetər ki, Vətənim yaşasın! Bu Vətəndə anam, bacım, iki qızım var. Milyonlarla qadınların simasında bacılarım, qızlarım var. Mən oğlumu ona görə böyütmüşəm ki, məni və torpağımı qorusun".

Şəhid Cəmil Qurbanzadənin atası digər şəhid valideynləri üçün də təsəlli olacaq fikirlərini dilə gətirdi: "Digər şəhidlərimizin valideynlərinə təsəlli üçün onu deyə bilərəm ki, əgər övladlarını sevirlərsə, sınmasınlar, həmişə dik qalsınlar. Çünki onların övladları çox böyük iş görüblər. Hər kəsə şəhidlik nəsib olmaz. Əgər onun övladı şəhid olubsa, onlar qürurlanmalıdırlar. Bu gün mənim ətrafıma toplaşan insanların içərisində elələri var ki, bəlkə də üç gün əvvələ qədər məni tanımırdı. Amma indi məni hər kəs tanıyır. Bu da övladım Cəmilin sayəsindədir. Mən bundan qürur duyuram. Sadəcə olaraq, qəlbimiz göynəyir. Övladımızı görməyəcəyik deyə, ayrılıq bizi sıxır. Amma düşünəndə ki, övladım şəhidlik məqamına yüksəlib, köksümü fəxarət hissi bürüyür. Çünki şəhidlik mənim üçün əlçatmaz bir zirvədir. Oğlumu ona görə böyütmüşəm ki, cəmiyyətə, bu Vətənə yararlı övlad olsun. Mənim xalqımın, millətimin işinə yarasın".

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

## Şəhid Turxan Süleymanovla vida mərasimi keçirilib




**Sentyabrın 16-da Daşkəsən Şəhidlər xiyabanında Ermənistan silahlı qüvvələrinin Azərbaycanla dövlət sərhədinin Kəlbəcər istiqamətində törətdiyi təxribatların qarşısını alarkən şəhid olan Azərbaycan Silahlı Qüvvələrinin hərbi qulluqçusu, 2002-ci il təvəllüdlü Süleymanov Turxan İdris oğlunun nəşi torpağa tapşırılıb.**



AZƏRTAC xəbər verir ki, vida mərasimində Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyev, Gəncə İmamzadə ziyarətgahının imamı hacı Tahir Abbasov, rayon hüquq-mühafizə orqanlarının, idarə və müəssisələrin rəhbərləri, hərbçilər, şəhid ailələri, qazilər və rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Dəfn mərasimində çıxış edən Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyev bildirib ki, Azərbaycan Ordusu Ermənistanın törətdiyi genişmiqyaslı təxribatın qarşısını yüksək peşəkarlıqla alıb, düşmənə layiqli cavab verib. Ermənistan silahlı qüvvələrinin yüzlərlə canlı qüvvəsi və hərbi texnikası, silah-sursatı məhv edilib. Turxan torpaqlarımızın ərazi bütövlüyü uğrunda Kəlbəcər rayonu istiqamətində düşmən təxribatının qarşısını alarkən qəhrəmancasına şəhid olub. Şəhidimizin əziz xatirəsi qəlbimizdə əbədi yaşayacaq.

Şəhidin tabutuna bürünmüş Azərbaycan bayrağı şəhidin atası İdris Süleymanova təqdim edilib. Dəfndə fəxri qarovul düzülüb, hərbi orkestrin müşayiəti ilə Dövlət himni səsləndirilib, yaylım atəşi açılıb.

## Tərtərdə şəhidlə vida mərasimi





**Ermənistan tərəfindən sərhəddə törədilən genişmiqyaslı təxribatın qarşısının alınması zamanı şəhid olan Azərbaycan Silahlı Qüvvələrinin hərbi qulluqçusu, müddətdən artıq həqiqi hərbi xidmət keçən əsgər, 1996-cı il təvəllüdlü Əhmədzadə Məftun Seymur oğlunun cənazəsi bu gün doğulduğu Tərtər rayonunun Evoğlu kəndinə gətirilib.**



Şəhidlə vida mərasimində Tərtər Rayon İcra Hakimiyyətinin məsul işçiləri, hüquq-mühafizə orqanlarının rəhbərləri, "N" saylı hərbi hissənin əsgər və zabitləri, şəhid ailələri, qazilər, veteranlar, kənd sakinləri, şəhidin doğmaları və döyüş yoldaşları iştirak ediblər.

Kənd qəbiristanlığındakı dəfndə izdiham yaşanıb və mərasim iştirakçıları "Şəhidlər ölməz, Vətən bölünməz!" şüarı səsləndiriblər. Dəfn mərasimində cənazənin üzərindəki üçrəngli Azərbaycan bayrağı Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov tərəfindən şəhidin atası Seymur Əhmədova təqdim olunub. Şəhid yaylım atəşləri altında torpağa tapşırılıb, ruhuna dualar oxunub. Hərbi orkestrın ifasında Azərbaycan Respublikasının Dövlət Himni səslənib.



Mərasimdə Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov çıxış edərək bildirib ki, torpaqlarımızın işğaldan azad edilməsi naminə canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi xalqımız tərəfindən daim uca tutulur, ehtiramla anılır. 44 gün davam edən Vətən müharibəsində rəşadətli Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə tarixi qələbə əldə edib, 30 il işğal altında olan Vətən torpaqları erməni faşizmindən birdəfəlik azad olunub. Xalq-iqtidar-ordu birliyi bizə qələbə sevincini yaşadıb. Bu günlərdə də igid oğullarımız düşmənin sərhəddə törətdiyi genişmiqyaslı təxribatlara layiqli cavab verdilər. Bir daha Azərbaycan Ordusunun, onun igid oğullarının güc-qüvvəsini nümayiş etdirdilər. "Dəmir yumruq" düşmənin başını əzdi. Sözsüz, bu qələbənin qazanılmasında itkilərimiz də oldu. Allah bütün şəhidlərimizə rəhmət etsin, qazilərimizə cansağlığı versin, şəhid analarının hər birinin qarşısında baş əyirik. Məftun kimi igid oğulların xatirəsi heç vaxt unudulmayacaq və gələcək nəsillərə qəhrəmanlıq nümunəsi olacaq. "Qarabağ Azərbaycandır!"

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

## Şəhid Rəşad Hüseynli Culfa rayonunda dəfn olunub




**Ermənistan silahlı qüvvələrinin təxribatının qarşısını alarkən şəhidlik zirvəsinə ucalan sərhədçi hərbçimiz baş çavuş Hüseynli Rəşad Ramiz oğlunun nəşi doğulduğu Culfa rayonunun Yaycı kəndində torpağa tapşırılıb.**



AZƏRTAC-ın Naxçıvan bürosu xəbər verir ki, Naxçıvan Beynəlxalq Hava Limanında qarşılandıqdan sonra doğulduğu kəndə yola salınan şəhidimizin nəşi "Başını dik tut, şəhid anası!", "Şəhidlər ölməz, Vətən bölünməz!" şüarları altında dəfn olunub.

Dəfn mərasimində dövlət və hökumət nümayəndələri, Əlahiddə Ümumqoşun Ordunun, Səfərbərlik və Hərbi Xidmətə çağırış üzrə Dövlət Xidmətinin, Culfa Rayon İcra Hakimiyyətinin əməkdaşları, ictimaiyyət nümayəndələri, minlərlə sakin iştirak edib. Vida mərasimində şəhidin ruhuna dualar oxunub.

Bildirilib ki, 44 günlük Vətən müharibəsində hərbçilərimizin göstərdiyi rəşadət Rəşad Hüseynli üçün örnək olub. Qəhrəman şəhidlərimizin şərəfli yolunu davam etdirən Vətənin igid oğlu 2021-ci ilin aprel ayından Dövlət Sərhəd Xidmətində şərəfli xidmətə başlayıb, baş çavuş rütbəsi ilə Cəlilabadda xidmətini davam etdirib. Sentyabrın 12-13-də Ermənistan silahlı qüvvələrinin bir neçə istiqamətdə baş verən genişmiqyaslı təxribatının qarşısının alınmasında fəal iştirak edib, Zəngilan istiqamətində gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb. Çıxış edənlər şəhidimizin ailəsinə başsağlığı verib, Vətən uğrunda can qoyan qəhrəman övladlarımızın qanının yerdə qalmadığını, güclü döyüş qabiliyyətinə malik şanlı ordumuz tərəfindən qisasının qətiyyətlə alındığını bildiriblər.

Sonra üçrəngli Azərbaycan bayrağı şəhidimizin atasına təqdim edilib və yaylım atəşi açılıb.

# İŞİMİZ, GÜZƏRANIMIZ

# Azərbaycanın enerji ixracı möhkəm bünövrədən saxələnir

## BTC kəmərinin təməlinin qoyulmasından 20 il keçir

Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft kəmərini "Üç dənizin əfsanəsi" də adlandırırlar. Əslində isə, BTC nə "birləşdirdiyi" üç dənizin, nə dağlarda çatdığı 2800 metrlik zirvələrin, nə də kəsişdiyi 1500 çayın əfsanəsidir. Bu əfsanə Heydər Əliyev qüdrəti ilə həqiqətə çevrilmişdir!



Azərbaycanın yeni neft strategiyasının əsas istiqamətlərindən biri ölkənin böyük neftinin dünya bazarlarına nəqli idi. Odur ki, "Əsrin müqaviləsi"ndən sonra növbəti layihələrin həyata keçirilməsi gündəmə gəlirdi. Məqsədin reallaşması üçün Ümummilli Lider Heydər Əliyev ötən əsrin 90-cı illərinin ortalarında özünün mühüm qərarını verdi. Bu, BTC kəmərinin tikilməsi haqqında qərar idi. Kəmərin tikintisinin başlanması üçün bir neçə il ardıcıl iş getdi.

Bu il sentyabrın 2-də İtaliyanın Çernobbio şəhərində "The European House - Ambrosetti" beyin mərkəzi tərəfindən keçirilən beynəlxalq forumda Prezident İlham Əliyev həmin dövrü belə xarakterizə edib: "Enerji təhlükəsizliyi məsələsində Azərbaycanın rolu haqqında danışarkən sizin diqqətinizi bəzi tarixi məqamlara yönəltmək istəyirəm. Bizim enerji strategiyamız mərhələlərə bölünüb.

1994-cü ildə müstəqilliyimizin bərpasından, sadəcə, üç il keçmişkən ilkin mərhələdə biz dünyanın aparıcı enerji şirkətlərini Xəzər dənizində çalışmağa dəvət edən ilk ölkə olduq. Tezliklə biz Avropa bazarına, əsasən də İtaliyaya neft ixrac edən ölkəyə çevrildik. Uzun illərdir ki, Azərbaycan İtaliyanı neftlə təchiz edən birnömrəli ölkədir. Lakin açıq dənizə çıxışı olmayan ölkə olaraq bizim ixrac boru kəmərlərinə ehtiyacımız var idi. Biz iki strateji neft boru kəmərinin inşası ilə Avrasiyanın enerji xəritəsinin dəyişdirilməsi prosesində təşəbbüsü üzərimizə götürdük. Biri Türkiyənin Aralıq dənizi sahilindəki limana qədər digəri isə Gürcüstanın Qara dəniz sahilindəki limana qədər uzanır. Beləliklə, biz Qara dəniz bazarı və dünya bazarlarına təchizatı şaxələndirməyə nail olduq."

Təbii ki, bu kəmərlərin çəkilişi asan başa gəlməyib. Məsələn, BTC-nin marşrutunun müəyyənləşdirilməsi, xəttin çəkilməsinə razılığın əldə olunması lazım idi. Buna görə də 1998-ci il oktyabrın 19-da BTC-nin tikintisi ilə bağlı Ankara Bəyannaməsi imzalandı. 1999-cu il noyabrın 18-də isə ATƏT-in İstanbul Zirvə toplantısında "Xam neftin Azərbaycan Respublikası, Gürcüstan Respublikası və Türkiyə Cümhuriyyəti əraziləri ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri vasitəsilə nəql edilməsinə dair" sazişə imza atıldı. Bu mühüm sənədi 5 ölkənin - Azərbaycanın, Gürcüstanın, Türkiyənin, Qazaxıstanın və ABŞ-ın prezidentləri öz imzaları ilə təsdiqlədilər.

Lakin BTC ideyası yaranan gündən Azərbaycanın istər daxilində, istərsə də xaricində kəmərin tikintisi əleyhinə çıxış edən qüvvələr baş qaldırdılar. Ulu Öndər isə uzaqgörənliklə BTC-ni Azərbaycanın gələcəyini çox böyük dərəcədə müəyyən edəcək bir layihə kimi dəyərləndirirdi və onun gerçəkləşməsi üçün mübarizə aparırdı. Bunun nəticəsidir ki, 2002-ci il sentyabrın 18-də Bakıdan 55 kilometr cənubda yerləşən Səngəçal terminalında kəmərin təməlqoyma mərasimi keçirildi. Azərbaycanın, Gürcüstanın və Türkiyənin dövlət başçıları, ABŞ-ın energetika naziri, layihənin tərəfdaşları olan tanınmış xarici şirkətlərin səlahiyyətli nümayəndələri, neçə-neçə ölkənin jurnalistləri orada idilər. Bu qeydlərin müəllifinə də həmin tarixi hadisəni görmək, Ümummilli Liderin tədbirdəki parlaq nitqini dinləmək xoşbəxtliyi nəsib olub.

Beləliklə, BTC artıq gerçəkləşməkdə idi. Ulu Öndər bunu öz çıxışında da qeyd etdi: "Bu yaxın vaxtlarda İstanbulda "Üç dənizin əfsanəsi" adlı konfrans keçirildi. Orada əfsanə haqqında söhbət gedirdi. Mən orada nitq söylədim, dedim, siz burada əfsanədən danışırsınız, amma mən sizə demək istəyirəm ki, bu, xəyal deyil, əfsanə deyil, üç dəniz - Xəzər dənizi, Qara dəniz, Aralıq dənizi birləşəcəkdir. Bunu birləşdirən də Türkiyə, Gürcüstan, Azərbaycan, onların həyata keçirdikləri bu layihə və Amerika Birləşmiş Ştatlarının bu məsələyə daimi dəstəyi olmuşdur. Ona görə də indi xəyaldan gerçəkliyə gəlib çatmışıq".

Bununla belə, BTC-nin bədxahları kəmərin təməli qoyulandan sonra da rahatlıq tapa bilmir, hər vasitə ilə layihəyə əngəl törətmək istəyirdilər. Hətta müxtəlif qruplar kəmərin tikintisini maliyyələşdirəcək beynəlxalq qurumların ofisləri qarşısına toplaşaraq onun çəkilişinə etiraz edirdilər.

Lakin 2003-cü ilin fevral ayında Vaşinqtonda keçirilən "Şərq-Qərb" enerji dəhlizi reallıqdır" konfransı öz işini davam etdirdiyi günlərdə Ümummilli Lider Beynəlxalq Maliyyə Korporasiyasının, BTC-yə kredit verəcək digər qurumların rəhbərləri ilə görüşdü, söhbətlər apardı. Bütün bunlar layihənin irəliləməsinə təkan verdi. Beləliklə, Heydər Əliyevin dünyadakı hörmət və nüfuzu sayəsində BTC-nin bu problemi də aradan qaldırıldı.

2004-cü ilin fevral ayında isə Bakıda, "Gülüstan" sarayında Prezident İlham Əliyevin iştirakı ilə BTC-nin maliyyələşməsinə aid son sənədlər imzalandı və bu problem tamamilə həll olundu.

2005-ci il mayın 25-də kəmərə Səngəçal terminalındakı baş nasos stansiyasından ilk neft vuruldu. 2006-cı il mayın 28-də BTC-nin daşıdığı neft Ceyhan terminalına çatdı. Həmin il iyulun 13-də kəmərin tam sistem kimi işə düşməsi münasibətilə Türkiyədə təntənəli tədbirlər keçirildi.

Xatırladaq ki, BTC Ko.-nun səhmdarları bp (30,10 faiz), SOCAR (25 faiz), MOL (8,90 faiz), "Ekvinor" (8,71 faiz), TPAO (6,53 faiz), "Eni" (5 faiz), "TotalEnergies" (5 faiz), İTOÇU (3,40 faiz), İNPEKS (2,50 faiz), "EksonMobil" (2,50 faiz) və ONGCVideş (2,36 faiz) şirkətləridir.

Bu ilin martın 23-də BTC ilə Səngəçal terminalından Ceyhan terminalına ixrac olunmuş neftin yüklənildiyi 5000-ci tankerin yola salınması qeyd edilib. Kəmər istismara veriləndən 2022-ci ilin ortasınadək ümumilikdə təqribən 516 milyon tondan çox (3,87 milyard barel) xam neft daşınıb. Bu neft həcmi Ceyhanda 5087 tankerə yüklənərək dünya bazarlarına göndərilib.

Cari ilin ilk altı ayı ərzində isə BTC vasitəsilə ixrac olunmuş təqribən 14,1 milyon ton (təxminən107 milyon barel) xam neft və kondensat Ceyhan terminalında148 tankerə yüklənib və yola salınıb.

Hazırda BTC əsasən "Azəri-Çıraq-Günəşli" neftini və "Şahdəniz" kondensatını daşıyır. Bundan əlavə, kəmərə Xəzərin digər regional xam neft və kondensat həcmləri də vurulur.

BTC bütün regionun həyatında mühüm rol oynayır. Bu kəmər 1768 kilometr məsafə qət edərək ərazisindən keçdiyi üç ölkənin - Azərbaycanın, Gürcüstanın və Türkiyənin sakinlərinin güzəranını xeyli yaxşılaşdırıb. Kəmər Azərbaycana böyük gəlirlər gətirib. Həmin vəsait ARDNF-yə (Azərbaycan Respublikası Dövlət Neft Fondu) daxil olur və ölkənin ən zəruri sosial-iqtisadi problemlərinin həllinə yönəldilir.

Vaxtilə Ulu Öndər BTC-nin iqtisadi gücünü qeyd etməklə yanaşı, onu həm də Azərbaycanı Avropa ilə daha sıx bağlayacaq polad kəmərə bənzətmişdi. Bu gün BTC, həqiqətən, Azərbaycanı beynəlxalq enerji ailəsinə qovuşdurub və dünyanın enerji təhlükəsizliyinə öz töhfəsini verməkdədir. Azərbaycanın açdığı və uzaq ünvanlara çatdırdığı geniş dəhlizlərin təməli məhz bu kəmərlə qoyulub.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## Əmtəə bazarının səmərəliliyi üzrə işçi qrupunun növbəti iclası keçirilib

**Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyasının Əmtəə bazarının səmərəliliyi və rəqabət işçi qrupunun onlayn formatda növbəti iclası keçirilib.**

İqtisadiyyat Nazirliyindən bildirilib ki, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti, Dövlət Vergi Xidməti, Dövlət Statistika Komitəsi, Mərkəzi Bank, Dövlət Neft Şirkəti, "Keyfiyyət Assosiasiyası" İctimai Birliyi, "PricewaterhouseCoopers Azerbaijan", eləcə də özəl sektor nümayəndələrinin iştirak etdiyi iclasda Dünya Bankı Qrupunun "Əlverişli Biznes Mühiti" layihəsinin "Bazar rəqabəti" indikatoru üzrə diaqnostika matrisasının son layihəsinin təqdimatı və işçi qrupunun 2022-ci il üçün fəaliyyət planının müvafiq bəndlərinin yarımillik dövr üzrə icra vəziyyəti müzakirə edilib.

İşçi qrupunun 2022-ci il üçün prioritet götürülən sahələrin icrasından irəli gələn məsələlər, qarşıda duran vəzifələr və son dövrlərdə həyata keçirilmiş islahatlar, xüsusilə rəqabət və dövlət satınalmaları sahəsində qanunvericilikdə edilmiş dəyişikliklərin layihəsi barədə də fikir mübadiləsi aparılıb.

Görüşün sonunda fəaliyyət planında nəzərdə tutulan tədbirlərin icrasının vaxtında və səmərəli təmin edilməsi məqsədilə "Bazar rəqabəti" indikatoru üzrə diaqnostika matrisasına əlavələrin olunması və qeyd edilən indikator ilə bağlı müvafiq sahədə təkmilləşmələrin həyata keçirilməsinə dair 2022-2023-cü illər üzrə yol xəritəsinin hazırlanması qərara alınıb.

## Artıq ödənilmiş vergi məbləği vergiödəyicisinə necə qaytarılır?

**Vergi Məcəlləsinə əsasən, hesablanmış aksiz vergisinin icbari tibbi sığorta fonduna ödənilən hissəsi istisna olmaqla, vergilərin, faizlərin və maliyyə sanksiyalarının ödənilmiş məbləğləri onların hesablanmış məbləğlərindən artıq olduqda, artıq ödənilmiş məbləğlər digər vergilərin, faizlərin, maliyyə sanksiyalarının və inzibati cərimələr üzrə borcların ödənilməsi və ya vergiödəyicisinin razılığı ilə sonrakı öhdəliklər üzrə ödəmələrin hesabına aid edilir.**

AZƏRTAC Dövlət Vergi Xidmətinə istinadla xəbər verir ki, məcəllədə başqa hallar müəyyən olunmayıbsa, artıq ödənilmiş vergilərin, faizlərin və maliyyə sanksiyalarının qalan məbləğləri vergiödəyicisinin ərizəsinə əsasən 45 gün ərzində vergiödəyicisinə qaytarılır.

Artıq ödənilmiş vəsaitin geri qaytarılması üçün vergi orqanına "Artıq ödənilmiş vergilərin, faizlərin və maliyyə sanksiyalarının qaytarılması barədə ərizə" ilə müraciət etmək mümkündür.

## Heyvandarlıq məhsullarının istehsalı artıb

**Ağcabədi rayonunun Taxtakörpü ərazisində məskunlaşan laçınlı məcburi köçkünlərin əsas məşğuliyyəti heyvandarlıqdır.**

Laçın Rayon Statistika İdarəsindən bildirilib ki, 2022-ci ilin yanvar-avqust aylarında rayon üzrə heyvandarlıq məhsulları istehsalında artım qeydə alınıb. Belə ki, ilin səkkiz ayında rayonda 15 min 258 sentner ət, 135 min 981 sentner süd, 2750 sentner yun və 3123 min ədəd yumurta istehsal edilib. 2021-ci ilin eyni dövrü ilə müqayisədə ət istehsalı 19,3 faiz, süd istehsalı 34,4 faiz, yumurta istehsalı 10,9 faiz, yun istehsalı isə 28,5 faiz artıb.

## Pambıq yığımına başlanılıb



**Beyləqan rayonunda pambıqçılıqla məşğul olan fermerlər və torpaq mülkiyyətçiləri məhsul yığımına başlayıblar. Mövsümün ilk günündə tarlalardan 0,67 ton məhsul toplanıb.**

2022-ci ildə Beyləqan rayonunda 3200 hektarı "Azərpambıq" MMC, 4460 hektarı "MKT İstehsalat Kommersiya" MMC, 700 hektarı "P-Agro" MMC ilə müqavilə əsasında, 36,6 hektarı isə digər şirkətlər olmaqla 8396,6 hektar sahədə pambıq becərilib. Pambıq sahələrinə lazımi aqrotexniki qulluq göstərilib, mineral gübrələr verilib, vaxtlı-vaxtında suvarma suyu ilə təmin edilib. Nəticədə tarlalarda bol məhsul yetişib.

Qeyd edək ki, 2021-ci ildə Beyləqan rayonunda 8629,5 hektar sahədə pambıq əkilib, 24 min 860,45 ton məhsul istehsal edilib, orta məhsuldarlıq 28,8 sentner olub.

## Fermerlər indiyədək 2220 ton quru tütün istehsal ediblər

**Şəki rayonunun təsərrüfatlarında tütün yığımı davam edir. İndiyədək rayonda fəaliyyət göstərən emal məntəqələrində, eləcə də fərdi təsərrüfatlarda dərilmiş yaş tütün kütləsindən 2220 ton quru tütün istehsal olunub.**

Bu barədə Şəki Dövlət Aqrar İnkişaf Mərkəzindən məlumat verilib.

Bildirilib ki, cari mövsümdə rayonun təsərrüfatlarında 1250 hektar sahədə tütün əkilib. Şəkili fermerlər bu il 917 hektar sahədə "Virciniya botaniki", 333 hektarda isə yerli tütün sortları yetişdiriblər. Tütün əkini sahələri əvvəlki illə müqayisədə 9 hektar artıb. Hazırda rayonda 350-dək fermer tütünçülüklə məşğul olur. Bu təsərrüfatlarda 1300 nəfərdən çox kənd sakininin məşğulluğu təmin edilib. Rayonda fəaliyyət göstərən tütün istehsalı və emalı məntəqələrində 246 tütünqurutma kamerası var. Eyni zamanda yerli tütün sortları istehsalçılar tərəfindən ipə düzülərək də qurudulur.

Xatırladaq ki, ötənilki mövsümdə şəkili fermerlər 1241 hektar sahədən 4150 ton quru tütün əldə ediblər. Tütün istehsalı əvvəlki illə müqayisədə 310 ton artıb.

# Azərbaycanın təhlükəsizlik kəməri qlobal böhranı cilovlamaq məqsədi daşıyır

*Əvvəli 1-ci səh.*

İyun ayında Dünya Bankı gözləntilərini 4,1 faizdən 2,9 faizə qədər aşağı endirmiş, BVF isə iyulda proqnozunu 3,2 faizə qədər pisləşdirmişdir. Bu rəqəmlər belə qənaətə gəlməyə əsas verir ki, dünya iqtisadiyyatı ciddi problemlərlə üzləşməkdədir və onun qlobal iqtisadi proseslərə mənfi təsirlərini tam proqnozlaşdırmaq mümkün olmasa da, həyəcanlı gözləntilər qaçılmazdır. Artıq bir çox ölkələrdə inflyasiya artımı ikirəqəmli ölçülərə keçir.

Qarşıda bizi gözləyən problemlərin nə dərəcədə ağırlaşdığını anlamaq üçün bir sıra rəqəmləri nəzərdən keçirmək yerinə düşərdi. Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) məlumatına görə, bu ilin iyun ayında dünya ərzaq qiymətləri indeksi 2021-ci ilin iyun ayı ilə müqayisədə 23,1 faiz artmışdır. Dənli bitkilərin qiymət indeksi iyun ayında 4,1 faiz azalsa da, ümumilikdə il ərzində dünya bazarlarında taxılın qiymət indeksi demək olar ki, 27,6 faiz artmışdır. Qlobal iqtisadiyyat Azərbaycana da öz mənfi təsirini göstərməkdədir. Belə ki, bu ilin birinci yarısında əhalinin gəlirləri 19,9 faiz artsa da, istehlak qiymətləri indeksi də 12,9 faiz artmışdır. Biz qlobal problemlərdən yaranan belə qaçılmaz reallıqlarla üzləşmək məcburiyyətindəyik.

İqtisadiyyat naziri Mikayıl Cabbarov belə hesab edir ki, dünyada baş verən neqativ geosiyasi və iqtisadi



proseslərin fonunda meydana çıxan bütün çətinliklərə baxmayaraq, ölkə iqtisadiyyatının inkişafındakı müsbət meyillər: maliyyə təhlükəsizliyinin yüksək səviyyədə olması, dövlət büdcəsinin sabitliyi və maliyyə imkanlarının genişlənməsi, iqtisadiyyatın şaxələndirilməsi sahəsindəki uğurlu nəticələr yeni sosial-iqtisadi inkişaf kursunun inamla həyata keçirilməsinə möhkəm zəmin yaradır. Nazir deyir ki, xarici borcun aşağı səviyyəsi və Neft Fondunda, eləcə də Mərkəzi Bankda yığılmış ehtiyatların böyük olması ölkənin qlobal iqtisadiyyatda gözlənilən "şaxta"lara digərlərindən daha yaxşı hazırlaşsa da, ehtiyatı əldən verməli deyilik.

Bu istiqamətdə atılan ən ciddi addımlardan biri işğaldan azad edilmiş ərazilərin ərzaq təhlikəsizliyinin təmin edilməsində iştirakının önə çəkilməsidir. Bu məqsədlə genişmiqyaslı tikinti-bərpa işlərinin həyata keçirilməsi üçün cari ilin birinci yarısında əsas kapitala investisiyanın real artım tempi nəzərəçarpacaq dərəcədə artmışdır.

Beləliklə, qeyri neft-qaz sektoruna investisiyaların real artım tempi 18,5 faiz olmuşdur. Dövlət təşkilatları tərəfindən əsas kapitala investisiyaların xüsusi çəkisi 35 faizə, büdcə vəsaitləri hesabına maliyyələşdirilən investisiyaların payı isə 68 faizə yüksəlmişdir.

Dövlət başçısının sərəncamları ilə iki - Ağdam və Araz Vadisi İqtisadi Zonası sənaye parkları yaradılmışdır. Ağdam və Cəbrayıl rayonlarında yerləşən bu sənaye zonaları yerli və xarici sahibkarlar üçün əlverişli biznes mühitinin yaradılması prosesini sürətləndirəcək. Azərbaycan dövləti azad edilmiş ərazilərdəki bütün sənaye parklarında infrastrukturun yaradılmasına, müxtəlif obyektlərin tikintisi xərclərinin maliyyələşdirilməsinə cavabdehdir.

Bütün görülən işlərə rəğmən, qeyd etmək vacibdir ki, Qarabağda biznes təkcə sənaye parklarının hesabına inkişaf etmir. Belə ki, 2021-ci ildə Qarabağ iqtisadi rayonunda 75 min 528, Şərqi Zəngəzur iqtisadi rayonunda isə 4 min 173 fərdi sahibkar qeydiyyatdan keçmiş, 2022-ci il iyulun 1-nə isə hər iki iqtisadi rayonda 4092 mikro, 211 kiçik, 76 orta və 18 iri sahibkarlıq fəaliyyəti göstərən subyektlər qeydiyyata alınmışdır.

Artıq yeni yaradılan strukturların fəaliyyətinin təkmilləşdirilməsi məqsədi ilə İqtisadiyyat Nazirliyi tərəfindən İqtisadi Zonaların İnkişafı Agentliyi yaradılmış və bu agentlik tərəfindən 6 iqtisadi zona, 4 sənaye məhəlləsi və 51 aqroparkın fəaliyyəti idarə edilir. 108 sahibkarlıq subyekti sənaye zonalarının rezidenti statusu almış, onlardan 60-ı artıq fəaliyyətə başlamışdır. Onların investisiyalarının həcmi 6,4 milyard manatı ötmüş və bunun hesabına 10 mindən çox yeni iş yeri açılmışdır.

Bu sırada əsası Prezident İlham Əliyev tərəfindən 2021-ci il iyulun 1-də qoyulan Ələt Azad İqtisadi Zonasının qeyd olunması mütləq vacibdir. 850 hektar ərazidə yerləşən bu zonada yerli və xarici investorlar innovativ texnologiyalardan istifadə etməklə yüksək əlavə dəyərli məhsullar istehsal edəcəklər. Ələt Azad İqtisadi Zonasının Bakı Beynəlxalq Dəniz Ticarət Limanının yanında yerləşən əlverişli coğrafi mövqeyi ticarət dövriyyəsinin əhəmiyyətli dərəcədə artması üçün yeni imkanlar yaradır. Rezidentlərin bütün növ vergilərdən azad ediləcəyi və qazanılan vəsaitləri sərbəst şəkildə çıxarılmasına icazənin verilməsi bu sırada atılan önəmli addımlardandır.

Aqroparklara gəldikdə isə, qeyd edə bilərik ki, 51 parkdan 44-ü artıq fəaliyyət göstərir, 7-sində layihələndirmə və tikinti işləri aparılır. Ölkənin 32 rayonunda yaradılan aqroparkların dəyəri 2,4 milyard manata yaxındır. Bütün bu addımlar qlobal təhlükələrdən sığortalanmaq, ərzaq təhlükəsizliyində aparıcı qüvvəyə nail olmaq üçün dövlətimizin reallaşdırdığı ciddi iqtisadi tədbirlərdir.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Ermənistanın mina terrorçuluğu

**2022-ci il sentyabrın 12-də gecə saatlarında Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Daşkəsən, Kəlbəcər və Laçın istiqamətlərində genişmiqyaslı təxribatlar törətdilər.**

Həmin tarixdə Ermənistan silahlı qüvvələrinin diversiya qrupları sutkanın qaranlıq vaxtında ərazinin dağlıq relyefi və mövcud dərə boşluqlarından istifadə edərək müxtəlif istiqamətlərdə Azərbaycan Ordusunun bölmələrinin mövqeləri arasındakı ərazilərin və təminat yollarının minalanmasını həyata keçirdilər.

Düzdür, məkrli, xain düşmənin bu murdar əməllərinin qarşısının dərhal alınması istiqamətində qəhrəman ordumuzun əsgərləri təxirəsalınmaz tədbirlər görərək, cəmi 7 saat ərzində layiqli cavablarını verərək, onları yerlərinə otuzdurdu.

Amma istənilən halda bu terror əməlləri ilə faşistxislətli ermənilər Azərbaycan xalqına qarşı düşmənçiliklərini, kinlərini, nifrətlərini bir daha dünyaya nümayiş etdirdilər.

## İşğalçı ölkə Qarabağı və Şərqi Zəngəzuru mina tarlasına çevirib

30 il ərzində Azərbaycanın tarixi torpaqlarını işğal altında saxlayan ermənilər bu ərazilərdə külli miqdarda mina basdırıblar. Qarabağı və Şərqi Zəngəzuru başdan-başa mina tarlasına çevirən terrorçular basdırdıqları piyada və tank əleyhinə olan bu partlayıcı qurğular sayəsində dinc əhaliyə, texnikaya, əraziyə mümkün qədər çox ziyan vurmaq məqsədi güdüblər.

10 noyabr 2020-ci ildə imzalanan üçtərəfli Bəyanatdan sonra Ermənistan tərəfindən Azərbaycanın işğaldan azad olunan ərazilərinə döşənmiş minaların partlaması nəticəsində xeyli sayda vətəndaşımız həlak olub, ciddi xəsarət alıb. Onların arasında KİV nümayəndələri də var.

Hazırda Azərbaycan dövlətinin qarşısında duran əsas problemlərdən biri işğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsidir. Ölkəmiz bu istiqamətdə bütün potensialından istifadə edərək həmin yerləri tez bir zamanda mina təhlükəsindən qurtarmaq istəyir. Amma bu elə də asan məsələ deyil, çünki belə geniş ərazilərin minalardan təmizlənməsi olduqca böyük zaman və resurs tələb edir.

Ermənistanın mina terroru işğaldan azad edilən yurdlarımızda aparılan quruculuq-bərpa işlərinin də ləngiməsinə, Böyük qayıdışın gerçəkləşməsinə əngəl yaradan maneə olaraq qalır. Keçmiş məcburi köçkünlərimizin dədə-baba yurdlarına dönüş prosesini ləngidir.

Azərbaycan bütün beynəlxalq tribunalarda işğaldan azad edilmiş ərazilərimizdə mina probleminin həlli ilə bağlı məsələni qaldırır, xalqımızın üz-üzə qaldığı bu təhlükəni dünyanın nəzərinə yetirir. Ermənistanın işğal altında saxladığı müddətdə Azərbaycan ərazilərinə basdırdığı minaların xəritələrinin ölkəmizə verilməsinin əhalimiz üçün həyati əhəmiyyət daşıdığını diqqətə çatdırır.

Xatırladaq ki, Azərbaycanın ardıcıl tələblərindən və beynəlxalq təzyiqlərdən sonra ötən ilin sonunda Ermənistan işğaldan azad edilmiş müəyyən ərazilərin minalanmış sahələrinin xəritəsini ölkəmizə təqdim etsə də, faktiki olaraq bu sənədlər işğaldan azad edilmiş əraziləri tam əhatə etmir.

Ötən il iyunun 12-də Ermənistan Ağdam rayonu üzrə 97 min tank və piyada əleyhinə minanın xəritəsini Azərbaycan tərəfinə verməyə məcbur edilmişdi. Həmin ilin iyulun əvvəlində isə işğal zamanı Füzuli və Zəngilanda basdırılmış təqribən 92 min minanın xəritəsi alınmışdı. Təəssüf ki, həmin xəritələrin də dəqiqliyi cəmi yüzdə 25 faiz təşkil edir.

Xatırladaq ki, Brüsseldə baş tutan bütün üçtərəfli görüşlərdə də mina probleminin həlli ilə bağlı müzakirələr aparılıb.

## Laçında aşkarlanan piyada əleyhinə minalar 2021-ci ildə Ermənistanda istehsal olunub

Görünən odur ki, Ermənistan xalqımıza qarşı gerçəkləşdirdiyi mina terrorundan heç cür əl çəkmək istəmir. Son günlər sərhədimizdə baş verən təxribat sayəsində də məlum oldu ki, Ermənistan ərazilərimizə partlayıcı qurğular yerləşdirməyə cəhd edir, hərbçilərimizi, o cümlədən mülki əhalimizi mina təhlükəsi ilə üz-üzə qoyur.

Ötən ay Laçında aşkarlanan xeyli sayda piyada əleyhinə minalar da bu ölkənin 10 noyabr üçtərəfli razılaşması ilə üzərinə götürdüyü öhdəlikləri pozduğunu göstərir.

Laçın rayonu ərazisində piyada əleyhinə mina sahələrindən cari ilin 15 avqustundan 31 avqustadək 1318 ədəd PMN-E növlü minalar aşkar edilib. Aşkar olunan minalar Vətən müharibəsindən sonra, yəni 2021-ci ildə Ermənistanda istehsal olunan minalardır. Baxmayaraq ki, beynəlxalq humanitar hüquqa əsasən, 1997-ci ildə qəbul edilmiş Ottava müqaviləsi piyada əleyhinə minaların istehsal edilməsi, saxlanılması, daşınması və istifadəsini qadağan edir.

Müdafiə Nazirliyi və Minatəmizləmə Agentliyinin beynəlxalq humanitar hüquqa zidd olaraq Laçında aşkarlanan PMN-E növlü minalarla bağlı birgə bəyanatında da məlumat verilir ki, Ermənistan işğaldan azad olunmuş ərazilərdə piyada əleyhinə minalar basdırmaqla 1949-cu il tarixli Cenevrə konvensiyalarının Birinci Əlavə Protokolunun tələblərini pozur və bunu rəsmi şəkildə bəyan etməklə beynəlxalq ictimaiyyətə açıq hörmətsizlik nümayiş etdirir.














## "Ermənistanın bu təxribatı iki ölkə arasında normallaşdırma prosesinə böyük zərbədir"

Vətən müharibəsindən sonra Ermənistanın dövlət sərhədimizdə törətdiyi ardıcıl təxribatlar işğalçıların məğlubiyyətlərini həzm edə bilmədiklərini və revanşist niyyətlər güddüklərini təsdiqləyir. Düşmənin sentyabrın 12-si gecəsindən başlayaraq Azərbaycana qarşı törətdiyi təxribatlar, ərazilərimizə mina döşəmələri isə qanlı əməllərinin daha bir nümunəsidir. Bütün bu yaramaz və ağılsız davranışları ilə Ermənistan 10 noyabr üçtərəfli Bəyanatında öhdəliyinə götürdüyü və qeyd-şərtsiz əməl etməli olduğu müddəaların icrasını yubatmağa, pozmağa yönəlik mövqe nümayiş etdirir.

Ermənistanın bölgədə sülhə mane olan təxribatçı əməlləri ilə bağlı Prezident İlham Əliyev Şanxay Əməkdaşlıq Təşkilatına üzv ölkələrin sammitindəki çıxışında da söylədi ki, Azərbaycan Ermənistana bir-birinin suverenliyinin və ərazi bütövlüyünün qarşılıqlı tanınmasına əsaslanan sülh müqaviləsi üçün beş əsas prinsip təqdim edib: "İndi biz ilkin şərtlər və süni ləngimələr olmadan sülh sazişi layihəsi üzərində işə başlamalıyıq. Lakin təəssüf ki, bu il sentyabrın 13-də Ermənistan Azərbaycanla dövlət sərhədində genişmiqyaslı hərbi təxribat törətmişdir. Azərbaycan Silahlı Qüvvələri bu təxribatın qarşısını qətiyyətlə almışlar. Ermənistanın bu təxribatı iki ölkə arasında normallaşdırma prosesinə böyük zərbədir. Buna görə də bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür".

Ermənistan nə qədər ki özü üçün gec deyil, Azərbaycana qarşı revanşist davranışlarından əl çəkməli, təxribatçı əməllərinə son qoymalıdır. Əks təqdirdə qisasımız həmişəki kimi ağır olacaq!

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*



# Erməni ekoterrorizmi

### Məğlubiyyətlə barışmaq istəməyən düşmən qeyri-qanuni məskunlaşdığı Azərbaycan torpaqlarında vandallığını davam etdirir

**Ermənistanın 30 il ərzində həyata keçirdiyi işğalçılıq siyasəti, vandallıq, ekoloji terror göz qabağındadır. Təcavüzkar ölkə 2020-ci ilin 10 noyabr üçtərəfli Bəyanatından sonra da belə çirkin əməllərindən əl çəkmir.**

Onlara edilən hər güzəştə, Azərbaycanın humanizm addımlarına baxmayaraq, daim öz xislətlərinə uyğun davranırlar. Məğlub ölkə olaraq kapitulyasiya aktını imzaladıqdan sonra onlara verilən vaxt ərzində Kəlbəcəri, Laçını tərk edərkən belə evləri, meşələri yandırdılar. Ağdamda isə təsəvvüredilməz dərəcədə vandallıq etmişdilər. Orada 30 il müddətində yandırmağa bir şey qalmamışdı, çünki daşı daş üstündə qoymayaraq, şəhərin axırına çıxmışdılar.

Laçın yolu hazır olduqdan sonra Laçın şəhəri, Zabux və Sus kəndlərindən çıxmaq üçün möhlət istədiklərində də Azərbaycan humanist addım ataraq avqustun sonuna kimi ermənilərə vaxt vermişdi. Bu ərazilərimizi tərk edərkən də yenə özlərinin olmayan hər şeyi yandırmağa başladılar. Ermənilər qeyri-qanuni yaşadıqları evləri, habelə meşələri yandıraraq həmin əraziləri tərk etdilər. Bu zaman Laçın şəhəri və ətraf ərazilərdə ermənilər tərəfindən törədilmiş 6 yanğın hadisəsi qeydə alınmışdı.

Son günlərdə isə ermənilərin Xocalı istiqamətində yanğın törətməsi məlum oldu. Hər dəfə məğlub olduqda həm hərbi, həm də danışıqlar masasında uduzduqlarını gördükdə, belə alçaq əməllərə əl atan ermənilər hər şeydən əvvəl insanlıqdan kənar olduqlarını göstərirlər. Heç insan gözəllikləri, təbiəti məhv edərmi? Amma vandallar bunu edirlər.

## Ermənilər təbiətə qarşı da düşmən mövqedə olduqlarını göstərdilər

Xocalı istiqamətində törətdilən yanğınlara münasibət bildirən ekologiya və təbii sərvətlər nazirinin müavini Vüqar Kərimov deyir ki, ermənilər indi də Xocalı istiqamətində, dağlıq ərazilərimizdə yanğınlar törətməklə öz riyakarlıqlarını, təkcə insanlığa deyil, həm də təbiətə qarşı düşmən mövqedə olduqlarını bir daha göstərdilər.

Nazir müavininin sözlərinə görə, bu cür hadisələr cinayətdir, ekoloji terror aktıdır: "Düşmən tərəfinin törətdiyi bu yanğınları ürəkağrısız izləmək mümkün deyil. Yanğınlar Xocalı istiqamətində olduqca zəngin bioloji müxtəlifliyi, nadir və nəsli kəsilmək təhlükəsi olan bitki və heyvan növlərinin yaşayış məskənini dağıdır, bu yerlərə xas olan palıd, vələs, fıstıq, qovaq, tozağacı kimi növlərə aid olan qiymətli meşələri məhv edir".

Vüqar Kərimov bildirir ki, ermənilərin törətdiyi yanğınlar ekosistemimizə böyük zərər vurur.

## Ekoloji terrorun izləri

Təbii ki, ermənilərin ekoloji terroru yalnız meşələrin, yaşıllıq ərazilərin yandırılması ilə bitmir. Eyni zamanda Ermənistan ərazisindən keçərək gələn, həmçinin Qarabağ və Şərqi Zəngəzurda yerləşən çayların çirkləndirilməsi, təbiətə vurulan digər ziyanlar da ekoterrorizmi açıq-aydın göstərir. Bu illər ərazində çirkləndirilmə nəticəsində çayların suyu yararsız hala düşüb. 44 günlük Vətən müharibəsindəki Zəfərimizdən sonra ərazilərimizin bərpası istiqamətində sürətli işlərə başlanılıb. Prezident İlham Əliyevin birbaşa nəzarəti ilə Qarabağ və Şərqi Zəngəzurda yenidənqurma və bərpa işləri həyata keçirilir. Eyni zamanda təbiətə vurulmuş ziyanın miqyası ölçülür, çayların çirklənmə səviyyəsi öyrənilir. İndiyədək aparılan təhlillərə görə, ən çox çirklənmə Oxçuçayda qeydə alınıb. Transsərhəd çay Ermənistan ərazisində daim çirklənməyə məruz qalıb. Belə ki, çayda çirkləndirici maddələrin yüksək qatılıqları əsasən yuxarı axında, Ermənistanla sərhədə yaxın seçilmiş nöqtədə müəyyən edilib. Aparılan araşdırmalar zamanı Oxçuçayın çirklənmə səbəbinin Qafan və Qacaran dağ-mədən sənayesinin tullantı sularının təmizlənmədən birbaşa çaya axıdılması ilə bağlı olduğu müəyyənləşib. Çirklənmə səviyyəsi normadan dəfələrlə artıq olduğu üçün Oxçuçayın suyu yararsız hesab edilir. Çayın suyundan istifadə insan sağlamlığı üçün zərərlidir və müxtəlif xəstəliklərin yaranmasına səbəb ola bilər. Çayın çirkliliyi onun biomüxtəlifliyinin məhvinə də gətirib çıxarır. Bunun nəticəsidir ki, müxtəlif vaxtlarda çayda balıqların kütləvi ölümünə də rast gəlinir. Təbii ki, çirklənmə yalnız Oxçuçayda deyil. İşğaldan azad olunmuş ərazilərin hər qarışında ekoloji terrorun izləri görünür.

## Oxçuçay fəlakəti

Xatırladaq ki, Oxçuçayla bağlı vəziyyətə Prezident İlham Əliyev bu ilin birinci rübünün yekunlarına həsr olunmuş müşavirədə də toxunub. Dövlət başçısı qeyd edib ki, Lev çayı, Zabux, Tutqun, Turqay, Bəsitçay, Qarqarçay, Quruçay, Köndələnçay, Oxçuçay - bütün bu çayları ermənilər işğal edərək vəhşicəsinə istismar edirdilər. Prezident Oxçuçay fəlakətinin indi dünyanın gözü qabağında olduğuna da diqqət çəkib: "Biz bu məsələni qaldırmışıq. Məsələni qaldıranda bizə söz verildi ki, bu fəlakəti törədən şirkət gəlib bunu təmizləyəcək. Amma artıq bundan bir il vaxt keçib, bizə heç bir təklif verilmir. Oxçuçayı zibilləyən, zəhərləyən "Cronimet" şirkətidir. Bu, böyük şirkətdir və bəzi xarici mətbu orqanlarda gedən məlumatlara görə, korrupsiya sxemləri əsasında Serjik Sarkisyanın keçmiş xunta rejiminin nümayəndələri ilə bunların qanunsuz biznes əlaqələri olub və onlar birlikdə orada o mis kombinatını işlədiblər. Ondan sonra Ermənistan hökuməti korrupsiyalaşmış həmin o erməni nümayəndələrindən bu kombinatın payını alıbdır. Ancaq bu fəlakəti törədən "Cronimet" şirkəti buna cavab verməlidir, yoxsa yox? Mən demişəm ki, beynəlxalq məhkəmələrdə məsələ qaldırılmalıdır. İndi mən çox şey demək istəmirəm, biz artıq hüquqi iddia ilə də çıxış edəcəyik, hazırlıq işləri gedir, beynəlxalq mütəxəssislər cəlb olunublar. Erməniləri törətdikləri vəhşiliklərə görə bütün dünyada ifşa edəcəyik".

Qeyd edək ki, mütəxəssislər tərəfindən Qarabağ və Şərqi Zəngəzurun çaylarında suyun keyfiyyətinin öyrənilməsi məqsədilə mütəmadi olaraq monitorinqlər keçirilir. Monitorinqlər zamanı çaylardan nümunələr götürülür. Amma əzəli, tarixi torpaqlarına qayıdanlar yenidən quraraq, yaradaraq, əkərək, becərərək Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəklər. Uzaq deyil... Yenidən bu ərazilərimiz yaşıllığa bürünəcək, orada təbiət, həyat canlanacaq.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*



# Ermənistan silahlı qüvvələrinin təxribatçıları tərəfindən basdırılan minalar aşkar olunub



Sentyabrın 12-də gecə saatlarında Ermənistan silahlı qüvvələrinin Kəlbəcər, Laçın və Daşkəsən rayonlarında genişmiqyaslı təxribatı zamanı qarşı tərəfin diversiya qruplarının sutkanın qaranlıq vaxtında ərazinin dağlıq relyefi və mövcud dərə boşluqlarından istifadə edərək müxtəlif istiqamətlərdə minaladıqları Azərbaycan Ordusunun bölmələrinin mövqeləri arasındakı ərazilər və təminat yolları mühəndis-istehkam bölmələrimiz tərəfindən təmizlənir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, ərazidə aparılan minatəmizləmə fəaliyyəti nəticəsində Ermənistanda istehsal olunmuş 100 ədəd piyada əleyhinə PMN-G minası, 8 ədəd piyada əleyhinə PMN-2 minası və 10 ədəd tank əleyhinə mina aşkar edilərək zərərsizləşdirilib.

Mühəndis təminatı üzrə zəruri tədbirlər davam etdirilir.



# Ermənilərin faşist əməllərini dünya görməlidir

**Təcavüzkar Ermənistanın hərbi-siyasi rəhbərliyi beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq dinc əhaliyə qarşı terror əməllərini davam etdirir. Hələ Vətən müharibəsi dövründə və ondan əvvəl düşmənin təxribatları nəticəsində mülki əhali və hərbçilər arasında həlak olanlar və yaralananlar vardı. Çoxsaylı yaşayış evlərinə, mülki obyektlərə ciddi ziyan vurulmuşdur.**


Xocalı 1992 Füzuli 2017 Gəncə 2020


Bərdə 2020


Gəncə 2020

Ermənistanın terrorçu-faşist qruplaşması Gəncədə Xocalı soyqırımını təkrar etməklə, dinc əhalinin, uşaqların, qadınların, qocaların qanını tökməklə, qətliam aktı həyata keçirməklə öz alçaq mahiyyətini, vandal və barbar simasını bir daha göstərdi. Mülki əhalinin qəsdən hədəfə alınması beynəlxalq humanitar hüququn, o cümlədən də 1949-cu il Cenevrə Konvensiyalarının kobud surətdə pozulması deməkdir. Birmənalı söyləmək olar ki, 2020-ci ilin iyulunda - bütün dünyanın COVID-19 pandemiyasına qarşı mübarizə apardığı bir dövrdə törədilmiş Tovuz təxribatı Ermənistanın məhz mülki əhalini hədəf seçməsinin əyani təzahürü idi. Ermənistan nüfuzlu beynəlxalq təşkilatların qəbul etdiyi beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan qərarlarına məhəl qoymur. Hələ də Ermənistan mülki insanları atəşə məruz qoymaqla yeni-yeni hərbi cinayətlər törətməkdə davam edir.

### Ermənilər günahsız insanları hədəfə alıblar

Ermənistan 2020-ci ilin Tovuz hadisələrində, həmin ilin sentyabrından başlatdığı təxribatlarda olduğu kimi, yenə də Azərbaycanın mülki şəxslərini atəşə tutdu. Ermənistanın mülki əhalini atəşə tutması onun terrorçu və antiinsani mahiyyətini göstərir. Düşmən Azərbaycan hərbi hissələrinin yerləşdiyi ərazilərə minaatanlardan atəş açmaqla tək hərbçilərə qarşı vuruşmur, bu əraziyə köçürülmüş mülki əhalimizin, təsərrüfat işləri ilə məşğul olan insanlarımızın, eyni zamanda yenidənqurma işlərində çalışan mülki əhalimizin həyatına da son qoymağa çalışır.

Ermənistanın hərbi hissələri Kəlbəcər, Laçın, Daşkəsən, Zəngilan istiqamətindən Azərbaycanın hərbi və mülki şəxslərini atəşə tutmaqda davam edir. Son gündə iki mülki şəxsimiz Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən açılan atəş nəticəsində yaralanıb. Bunlar Kəlbəcər rayonu ərazisində heyvandarlıqla məşğul olan - Goranboy rayonunun Veyisli kəndində yaşayan Kəlbəcər rayonu Bozlu kənd sakini, 1975-ci il təvəllüdlü Musayev Asim İsa oğlu və Goranboy rayonunun Qaraçinar kəndində yaşayan - Kəlbəcər rayonu Ağdaban kənd sakini, 1984-cü il təvəllüdlü Orucov Arzuman İman oğludur. A.Musayev Gəncə şəhəri A.Səhhət adına 1 nömrəli Xəstəxanada müalicə alır, onun vəziyyəti orta-ağır qiymətləndirilir. A.Orucova isə ilkin tibbi yardım göstərildikdən sonra evə buraxılıb. Ermənistanın bu kimi əməlləri Azərbaycanın işğaldan azad edilmiş sərhədyanı rayonlarda həyata keçirdiyi irimiqyaslı mülki infrastruktur layihələrinin icrasını ləngitmək və Azərbaycan sərhədləri yaxınlığında gərginlik mühitini saxlamaq məqsədini güdür.

Ermənistan 30 il ərzində Azərbaycan torpaqlarını işğalda saxladığı müddətdən bu günə qədər heç bir beynəlxalq hüquq normalarına əməl etmir, uzərinə götürdüyü öhdəlikləri yerinə yetirmək istəmir. Bunun üçün də hər cür məkrli təxribatlara əl atır və Azərbaycan Ordusu tərəfindən qətiyyətlə cəzalandırılır. Son təxribatlardan sonra Ermənistanın xeyli sayda hərbi texnikası, milyarddan artıq dəyəri olan iki S-300 raketi, 200 nəfərə yaxın canlı qüvvəsi, çoxlu sayda hərbi obyekti və onlarca postu məhv edilib. Azərbaycan Ordusunun sarsıdıcı zərbələri nəticəsində həm canlı qüvvə, həm də texnika baxımından böyük itkilər verən düşmən geri çəkilməkdə, döyüş mövqelərini qoyub qaçmaqdadır.

### Ermənistan beynəlxalq hüquqa məhəl qoymur

Beynəlxalq hüquq deyir ki, əhalinin zəif təbəqəsi olan uşaqlara, qadınlara, qocalara, mülki şəxslərə qarşı güc tətbiq etmək qadağandır. Lakin ermənilər beynəlxalq hüququ saymırlar. Təəssüf ki, beynəlxalq təşkilatlar buna göz yumur, hərbi cinayətlər törədən işğalçı dövlətə təzyiq göstərmirlər.

Ermənistanın terrorçu mahiyyəti, onun yalnız Azərbaycan üçün deyil, bölgədəki hər bir dövlət üçün təhdid və təhlükə mənbəyi olması region dövlətləri tərəfindən də dərk edilməlidir. Onlar anlamalıdırlar ki, qonşu dövlətlərə qarşı davamlı şəkildə ərazi iddiaları irəli sürən, ərazisində terror təşkilatları yerləşdirən Ermənistan onlar üçün də böyük təhlükədir. Regionda fundamental insan hüquqlarının təmin olunması məqsədilə Ermənistanın təcavüzünə dərhal son qoyulmalı, beynəlxalq təşkilatlar və aparıcı dünya dövlətləri tərəfindən kəskin surətdə pislənilməli və tədbir görülməlidir.

*Elşən YƏHYAYEV,*
*"Azərbaycan"*



# Dünyaşöhrətli azərbaycanlı

**Dünyaya gəldiyi gün doğma xalqı, müstəqilliyi yolunda böyük mücadilələr etdiyi Azərbaycan üçün onun adı ilə əlamətdardır. 18 sentyabr məhz Üzeyir günüdür...**

### Azərbaycan mədəniyyətində yeni dövrün başlanğıcı

Üzeyir bəy Hacıbəyli 1885-ci ilin bu günü dünyaya göz açıb. Şuşada boya-başa çatıb. Bu şəhərin ab-havası, musiqi ilə, muğamla, poeziya ilə nəfəs alan mühiti balaca Üzeyir bəyin dünyagörüşünə böyük təsir göstərib. Kiçik yaşlarından Azərbaycan xalqının min illərdir qoruyub yaşatdığı, nəsildən-nəslə ötürdüyü mənəvi irsinə yalnız bələd olmayıb. Öyrəndikcə xalqının bu dəyərli milli mənəvi sərvətinə heyran qalıb.

İllər ötdükcə o, Azərbaycan xalq mahnılarının, muğamlarının bilicisi olub. Şuşanın musiqi mühiti Üzeyir bəyə Azərbaycanın zəngin mənəvi irsini dərindən mənimsəməklə, yaşatmaqla bərabər, həm də dövrlə ayaqlaşmağı öyrədib.

XIX əsrin sonlarında Əbdürrəhim bəy Haqverdiyevin təşəbbüsü və rəhbərliyi ilə Şuşada həvəskar artistlər tərəfindən "Məcnun Leylinin məzarı üstündə" adlı musiqili səhnəcik göstərilib. Tamaşanın musiqi tərtibatçısı məşhur tarzən Sadıq Əsəd oğlu (Sadıqcan) olub.

Məhəmməd Füzulinin "Leyli və Məcnun" poemasından götürülən, muğam musiqisi əsasında qurulan səhnəcikdə Məcnun rolunu Cabbar Qaryağdıoğlu ifa edib. On üç yaşlı Üzeyir bəy xanəndəni müşayiət edən oğlanlar xorunda çıxış edib. Sonralar Üzeyir bəy Hacıbəyli xatirələrində yazacaqdı: "Təxminən 1897-1898-ci illərdə... mən doğma şəhərim olan Şuşadakı həvəskar tamaşada "Məcnun Leylinin məzarı üzərində" səhnəsini gördüm; bu səhnə məni o qədər dərindən həyəcanlandırdı ki, ... mən opera yazmağa qərar verdim".

Tiflisdə, Qori Seminariyasında oxuduğu vaxt italyan operasına - Rossinin "Seviliya bərbəri"nə tamaşa edib. Tamaşa uşaqlıq xatirələrində dərin iz buraxan, heç zaman unutmadığı fikirlərini reallaşdırmağa onu daha da həvəsləndirib.

1907-ci ildə "Leyli və Məcnun" operasını yazıb. Operanın librettosunun müəllifi özü idi. Yalnız Azərbaycanın deyil, bütün Şərqin musiqi tarixində yeni səhifə açan operanın səhnəyə qoyulması üçün hazırlıqlara başlanılıb. Üzeyir bəy Hacıbəylinin evində və "İsmailiyyə" mehmanxanasında məşqlər keçirilib. Üzeyir bəyin yaxın dostu İmran Qasımovun təklifi ilə 1907-ci ilin son günlərindən isə operanın məşqləri Muxtarov, 115 ünvanında (keçmiş Persidskaya, 135) yerləşən Qasımovların böyük evinin üçüncü mərtəbəsindəki geniş zalda aparılıb. "Leyli və Məcnun" operasının ilk tamaşası 1908-ci il yanvarın 18-də Bakıda, Hacı Zeynalabdin Tağıyevin teatrında nümayiş olunub. Operanın ilk dirijoru Əbdürrəhim bəy Haqverdiyev, rejissoru Hüseyn Ərəblinski idi. Məcnun rolunda Hüseynqulu Sarabski, Leyli rolunda isə aşpaz şagirdi Əbdürrəhim Fərəcov çıxış ediblər. Tamaşanın təəssüratları elə möhtəşəm olub ki, şəhərdə bu barədə günlərlə danışılıb. Yeni əsər və onun istedadlı müəllifindən Bakıda nəşr olunan mətbu orqanlarda da bəhs olunub.

Azərbaycan musiqi mədəniyyəti "Leyli və Məcnun"la yeni dövrə qədəm qoydu. Üzeyir bəy "Leyli və Məcnun"dan sonra musiqimizi "Şeyx Sənan", "Rüstəm və Söhrab", "Şah Abbas və Xurşudbanu", "Əsli və Kərəm", "Harun və Leyla", "Koroğlu" operaları, "Ər və arvad", "O olmasın, bu olsun", "Arşın mal alan" musiqili komediyaları, xalq calğı alətləri orkestri üçün iki fantaziya, çoxlu mahnılar, romanslar, kantatalar, orkestr, kamera-instrumental və digər ölməz əsərləri ilə zənginləşdirdi.

### Dəyişən siyasi quruluşlar, dəyişməyən şəxsiyyət

Onun Azərbaycanın müstəqilliyi uğrunda mübarizəsi XX əsrin ilk illərindən başlamışdı. 1918-ci ildə Azərbaycan Xalq Cünhuriyyətinin qurucuları ilə çiyin-çiyinə dayandı. 1920-ci ildə bolşeviklər Azərbaycanda hakimiyyəti ələ keçirdikdən sonra bir çoxu kimi Üzeyir bəy Hacıbəylinin də həyatı üçün təhlükə yaransa da, Vətəni tərk etmədi. Bir müddət susdu. Sonra sovet hakimiyyətinin bütün ziddiyyətlərinə, danosbazların şərinə, təzyiqlərinə rəğmən, yaradıcılığını davam etdirdi. Ölməz əsərlərinin bir çoxunu da həmin gərgin illərdə yaratdı. Və Üzeyir bəyin təşkilatçlıq bacarığı ilə Azərbaycan musiqi sənəti inkişaf etdi. O, Azərbaycan Bəstəkarlar İttifaqının sədri (1938-1948), Azərbaycan Dövlət Konservatoriyasının rektoru, (1928-1929, 1939-1948), Azərbaycan Elmlər Akademiyası İncəsənət İnstitutunun direktoru (1945-1948) oldu. Azərbaycan Dövlət Konservatoriyasına rəhbərlik etdiyi illərdə Üzeyir bəyin təşəbbüsü ilə Rusiyanın aparıcı şəhərlərindən - Moskva və Leninqraddan (indiki Sankt-Peterburq) görkəmli musiqiçilər, tanınmış pedaqoqlar, nüfuzlu professorlar dəvət edildilər. Həmin illərdə Azərbaycan musiqi sənətini Avropa səviyyəsinə bərabərləşdirən musiqiçilərimiz yetişirdi. Onların dərs aldıqları böyük pedaqoqların arasında Üzeyir bəy Hacıbəylinin yeri əvəzolunmaz idi. Yaradıcılığında milliliyi qoruyub saxlayan, Azərbaycan milli musiqisindən, muğamlarımızdan bəhrələnən Üzeyir bəy gənclərə xalq musiqisinin əsaslarından dərs deyirdi.

Üzeyir bəy Hacıbəyli istedadı olanların əlindən tuturdu, onların yaradıcılıq yollarında maneələrlə qarşılaşmalarına imkan vermirdi. Onun təməlini ənənələr üzərində qoyduğu, yeniliklərə, müasirliyə açıq Azərbaycan musiqisi ona görə parladı. Şöhrəti bütün dünyaya yayıldı. O dövrün Fikrət Əmirov, Qara Qarayev, Cövdət Hacıyev, Maestro Niyazi, Əfrasiyab Bədəlbəyli, Arif Məlikov və başqa istedadlı gəncləri musiqi sənətimizi yeni əsərlərlə zənginləşdirdilər.

Üzeyir bəyin böyük xidmətlərindən biri də müxtəlif musiqi kollektivləri yaratmaq istiqamətində gördüyü və uğur qazandığı işlər oldu.

### Minnətdarlıqla anılan dahi ömrü

Üzeyir bəy Hacıbəyli Azərbaycan Xalq Cümhuriyyətinin və Azərbaycan Respublikasının Dövlət Himninin musiqisinin müəllifidir. O, "Professional Şərq musiqisinin atası" adlandırılır. Əsərlərinə bütün dünyada maraq və sevgi olan bəstəkarın 100 illik yubileyi UNESCO-nun qərarı ilə beynəlxalq miqyasda qeyd edildi.

18 Sentyabrın Musiqi Günü kimi qeyd olunması ənənəsini görkəmli bəstəkarımız və drijorumuz maestro Niyazi qoydu. O, Üzeyir bəy Hacıbəylinin vəfatından sonra hər ilin 18 sentyabrını bayram kimi qeyd edirdi. Bu ənənə uzun illər davam etdi.

1995-ci il sentyabrın 18-də dahi bəstəkarın anadan olmasının 110-cu ildönümündə Prezident Heydər Əliyev "Üzeyir musiqi gününün keçirilməsi haqqında" Fərman imzaladı. Fərmana uyğun olaraq, ölkəmizdə hər il ənənəvi şəkildə Üzeyir musiqi günü keçirilir.

Həmin gün dahi bəstəkar, musiqişünas, pedaqoq, publisist, redaktor Üzeyir bəy Hacıbəylinin yalnız soydaşlarına deyil, bütün insanlara örnək olan altmış üç illik ömür yolu, çoxşaxəli və zəngin yaradıcılığı heyrətqarışıq minnətdarlıqla yenidən anılır...

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

# Düşmən gücümüzü və birliyimizi bir daha gördü

**2020-ci ilin yay aylarında baş verən hadisələr hərbi-siyası həyatımıza da qaynarlıq gətirdi. Azərbaycanın sülh danışıqlarına, torpaqların müharibəsiz, qansız-qadasız geri qaytarılması təkliflərinə ermənilərin cavabı vəziyyəti dəyişdirirdi. İşğalçı dövlət yenidən torpaq iddiası ilə vurnuxurdu. Dişi qana batmış düşmən 2020-ci ildə azğınlaşaraq iyul ayında Tovuz rayonunun Ağdam kəndi istiqamətində dövlət sərhədimizi pozaraq ərazilərimizə soxulmaq, yeni torpaqlar işğal etmək niyyətinə düşdü. Amma unudurdular ki, Azərbaycan 90-cı illərin Azərbaycanı deyil.**

Qeyd edək ki, ermənilər Tovuz hadisələrindən qabaq 2016-cı ilin aprel ayında Füzuli-Cəbrayıl rayonları istiqamətində atəşkəsi pozaraq yeni ərazilərimizə göz dikmişdilər. Lakin Azərbaycan Ordusunun sayıqlığı və gücü qarşısında ilk məğlubiyyət acısını dadıb Lələtəpə kimi strateji yüksəkliyi və xeyli ərazini qoyub qaçmaq məcburiyyətində qalmışdılar. O zaman ilk məğlubiyyətin acısını dadsalar da, təəssüf ki, dərs almamışdılar.

2020-ci ilin yayında düşmən Tovuz rayonu istiqamətində hücum edərkən elə zənn edirdi ki, Azərbaycan Ordusunün əsas qüvvələri Qarabağda dislokasiya olunduğu üçün zəif bənd kimi sərhəd bölgəsində müdafiə xəttini asanlıqla yara biləcək. Amma necə deyərlər, sən saydığını say... Ermənilər hələ də qəbul etmək istəmirdilər ki, Azərbaycan Ordusu nəinki Qafqazın, regionun da ən qüdrətli Silahlı Qüvvələrindən biridir. Ordumuzun sıralarında canını hər an bu vətən üçün qurban verməyə hazır olan zabit və əsgərlər xidmət edirlər. Komandirlər döyüşə gedən əsgərlərinə yalnız "Əsgər, irəli!" əmrini vermirlər. Generallarımız, digər ali rütbəlilərimiz döyüş zamanı "Əsgər, ardımca!" - deyib ön cərgədə özləri döyüşürlər. Ordumuzun poladiradəli generalı Polad Həşimov, hərbi andına sadiq, düzilqarlı İlqar Mirzəyev kimi polkovnikləri, sinəsini düşmən gülləsinə tuş edən minlərlə zabiti var...

Ermənilərin Tovuza hücum etməkdə məqsədləri danışıqları pozmaq, sülh prosesinə mane olmaq idi. İstəkləri danışıqlar prosesi zaman güzəştlər əldə etmək idi. Unudurdular! Dərk edə bilmirdilər ki, qarşılarındakı dünyanı öz qətiyyəti, polad iradəsi və dəqiq məntiqi ilə heyrətləndirən İlham Əliyevdir. Hələ nəyə qadir olduğumuzu bilmirdilər. Amma elə döyüşlərin ilk günündəcə ordumuzun gücünü gördülər. Qısa bir zamanda düşmənin sərhədboyu cəmləşdiyi döyüş texnikası, ağır artilleriya qurğuları, canlı qüvvələri, komanda müşahidə məntəqələri dəqiq atəşlə darmadağın edildi.

Tovuz döyüşlərində xalqımızın qəhrəman oğulları general Polad Həşimovun, polkovnik İlqar Mirzəyevin, digər əsgər və zabitlərimizin qəhrəmancasına şəhid olması gənclərimizin ermənilərə olan qəzəblərini, nifrətlərini daha da artırdı.

27 sentyabrda düşmən həddini aşdı. Dəmir iradə "dəmir yumruğ"a dondü. Bir olan xalq öz lideri ətrafında bir yumruq kimi birləşərək düşmənin başını əzdi. İşğalçı dövlət 44 gündə yenildi. Xalqımızın böyüklüyüdür, aman diləyənə imkan verməк. Namərdin də adətidir, hər şeyi fürsət bilmək. Ermənilər də 2020-ci ilin 10 noyabrında imzalanan atəşkəsdən istifadə edərək revanş götürüb, toparlanıb üstümüzə gəlmək üçün fürsət axtarırdılar.

İki ildir ki, cığallıq edirlər. İki ildir ki, müxtəlif bəhanələrlə vaxt uzadıb 10 noyabr tarixli üçtərəfli Bəyanatın şərtlərini pozurdular. Xaricdən təkcə silah yox, həm də dərs alıblar. Öz ağılları ilə yox, havadarlarının, Azərbaycanın inkaşıfını, qüdrətini gözü götürməyənlərin fitvası ilə oturub-dururlar. Elə zənn edirdilər ki, müxtəlif təzyiqlərlə iradəmizə təsir edə biləcəklər. Elə düşünürdülər ki, hərbi yolla, güclə Qarabağa hansısa status ala bilərlər. Yaddaşsızdırlar. Dərk emirdilər ki, 30 il mina əkib, "keçilməz sədlər", "alınmaz istehkam"lar qurduqları Qarabağda indi Azərbaycan Ordusu yerləşib. Torpaq da, güc də, qüdrət də ondadır. Azərbaycan əsgərinə ayağını basdığı ana torpaq güc, qüvvət verir. Torpaq uğrunda döyüşmək, torpaq uğrunda şəhid olmaq bizə ölüm deyil, şərəfdir, şəhadətdir.

Yenə də dərs almadılar... Bu da reallıqdır ki, Ermənistanda ictimai-siyasi vəziyyət gərgindir, iqtisadi durum ağırdır. Daxildə sabitlik yoxdur. Hakimiyyət davası, siyasi intriqalar, işsizlik, yoxsulluq pik həddinə çatıb. Orduda özbaşınalıq baş alıb gedir. Təchizat və təminat olduqca yarıtmazdır. Erməni mətbuatı yazır ki, Nikol orduda adicə dəbilqə və zirehli gödəkçələrin çatışmadığını bildirib. Nə qədər gülünc görünsə də, Paşinyan - "Müdafiə Nazirliyinin görməli olduğu işi də mən görməli deyiləm ki", - deyərək tənqidçilərdən özünü müdafiə etməyə çalışıb. Təkcə bu fakt Ermənistan ordusundakı real vəziyyətin nə yerdə olduğunu təsəvvüretmə imkanı yaradır. Eyni zamanda Ermənistanda revanşist qüvvələrin hakimiyyət uğrunda mübarizələri getdikcə şiddətlənir. Paşinyanı 10 noyabr Bəyanatını imzalamaqda, təslimçilik müqaviləsinin şərtlərini yerinə yetirməkdə və satqınlıqda ittiham edənlərin aktivliyi artır. Belə bir vəziyyətdə müharibə faktorundan istifadə edib müəyyən qədər hakimiyyətinin ömrünü uzada biləcəyini düşünən Nikol Paşinyan yenə köhnə metoda əl atıb mövcud vəziyyətdən diqqəti yayındırmaq istəyir. Ermənistanın hərbi-siyasi hakimiyyəti elə zənn edirdi ki, müharibəni Qarabağdan Ermənistan ərazisinə keçirməklə, KTMT-ni müharibəyə cəlb edə biləcək. Özü də bunun üçün erməni kələyindən istifadə edib "zəmin" də hazırlamağı unutmadı. Erməni silahlı qüvvələrini, ağır artilleriyanı əhalinin sıx yaşadığı yaşayış məntəqələrində yerləşdirib torpaqlarımızı həmin nöqtələrdən atəşə tutdular. Ermənistan hərbi-siyasi rəhbərliyi gözəl bilir ki, Azərbaycan ermənilərdən fərqli olaraq ləyaqətlə müharibə aparır, dinc əhali olan yerləri bombalamır, sırf real hərbi hədəfləri vurur. Eyni zamanda Paşinyan unudur ki, KTMT-nin əksər üzvü Azərbaycanla dost, tərəfdaş ölkələrdir. Paşinyan onu da unudur ki, müasir silahlarla silahlanmış Azərbaycan Ordusu öz ərazisini qorumağa tam hazır olan qüdrətli qüvvədir. İstənilən vaxt hər hansı xarici təhlükənin qarşısını almağa gücü çatır.

Köhnə ssenari ilə Paşinyanın hazırladığı bu təxribat da Ermənistana baha başa gəldi. Ordumuz dəqiq zərbələrlə düşmənin sərhədboyu cəmləşdiyi hərbi infrastrukturu canlı qüvvəsi ilə tamamilə darmadağın edib strateji yüksəklikləri, yolları nəzarətə götürdü.

Vətən torpağı bizə babalarımızdan əmanətdir. Bizdə əmanətə xəyanət yoxdur. Ulularımızdan bizə qalmış əmanəti gələcək nəsillərimizə çatdırmaq müqəddəs borcumuzdur. 71 igidimiz yox, hamımız torpaq uğrunda şəhid olarıq, amma düşmənə bir qarış da torpaq verməri. Bunu dostlar bilirlər, düşmənlər də birdəfəlik dərk etməlidirlər.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

# "Qarabağ" qürur ünvanımızdır





Əvvəli 1-ci səh.

Ən böyük rol isə baş məşqçidədir. Bu komandada oynayan hər bir futbolçu meydanda ancaq onun verdiyi tapşırıqları yerinə yetirir. Qurban Qurbanovun "Nant"ın üzərindəki qələbəni ordumuza və şəhidlərin ruhuna həsr etməyi də hər kəsi duyğulandırdı. Birinci dəfə deyil ki, "Qarabağ" beynəlxalq yarışlarda böyük uğurlar qazanır, xalqımızı, ölkəmizi beynəlxalq arenada layiqincə təmsil edir. Bu uğurlar təsadüfi deyil. Futbol klubunun nailiyyətlərinin siyasi tərəfi də var.

"Qarabağ" Avropadakı çıxışı zamanı bütün təxribatlara baxmayaraq, "Qarabağ Azərbaycandır!" həqiqətini sübut edib. Klub həm işğal dövründə, həm İkinci Qarabağ müharibəsində əldə edilmiş tarixi zəfərdən sonra Qarabağ adını uca tutur, bu adı bütün Avropa futbol məkanında təbliğ edir. Klub möhtəşəm oyunlar nümayiş etdirməklə, Azərbaycanın dünyada ən güclü informasiya raketinin daşıyıcısına çevrilir.

Prezident İlham Əliyev "Qarabağ"-"Nant" matçı ilə bağlı tviterdə paylaşım edib. Paylaşımda deyilir: "Qarabağ (Azərbaycan) - Nant (Fransa) - 3:0. Darmadağın! Qarabağ Azərbaycandır!" Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva da "Qarabağ"ın inamlı qələbəsi ilə bağlı paylaşım edib. O, rəsmi instaqram səhifəsində "Qarabağ Azərbaycandır!" həştəqi ilə Prezident İlham Əliyevin tvitini paylaşıb.

Dövlət başçısı daim idmana və idmançılara dəstək olub. İdmançılar da bu dəstəkdən ruhlanır, həvəslənir və yarışlara daha yaxşı hazırlaşırlar. Ötən il Prezident İlham Əliyev UEFA Konfrans Liqasında pley-off mərhələsinə yüksələn "Qarabağ" futbol klubunun üzvlərini qəbul edərkən deyib: "Sizi əldə edilmiş yeni nailiyyət münasibətilə ürəkdən təbrik edirəm. "Qarabağ" futbol klubu Azərbaycan azarkeşlərini, deyə bilərəm ki, bütün Azərbaycan xalqını bir daha sevindirib". Dövlət başçısı bildirdi ki, bu qələbə bir daha onu göstərir ki, "Qarabağ" futbol klubu Azərbaycan futbolunun flaqman komandasıdır. Prezidentin futbolçularla görüşü və onları qəbul edərək dəstək verməsi komandanı daha da ruhlandırdı.

Ən önəmli məqamlardan biri isə budur ki, məhz Qurban Qurbanovun sayəsində "Qarabağ" təkcə futbol oynamadı, eyni zamanda getdiyi hər ölkədə Qarabağ həqiqətlərini dünyaya çatdırdı. Yüz milyonların qarşısında nümayiş etdirdiyi oyunlarla döyüşkən və cəsarətli komanda olduğunu, döyüşkənliyin hər bir azərbaycanlının ruhunda yer aldığını nümayiş etdirdi. O, yeganə azərbaycanlı məşqçidir ki, komandası dalbadal yeddi dəfə Azərbaycan çempionu olub. Q.Qurbanov yüksək məşqçilik bacarığı ilə yanaşı, meydandan və ondan kənarda yüksək insani keyfiyyəti, futbolda hər məşqçiyə xas olmayan ləyaqətli davranışı, ədalətli qərarları ilə tanınır və sevilir ki, bu fakt da həm Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, həm də ictimaiyyət tərəfindən dəfələrlə vurğulanıb.

*Elşən YƏHYAYEV,*
*"Azərbaycan"*

# II Elizabetlə son vida günü

## Kraliçanın dəfn mərasiminə kimlər dəvət olunub?

**Sabah, sentyabrın 19-da Böyük Britaniyada keçiriləcək II Elizabetin dəfn mərasimi dünyanın aparıcı siyasətçiləri və kral ailələri üzvlərinin bir araya gələcəyini vəd edir. Bu günlərdə onlara rəsmi dəvətnamələr göndərilib. Dəfn mərasiminə 500-ə yaxın dövlət başçısı və dünyaşöhrətli insanların qatılacağı gözlənilir.**



Londonda tıxacların qarşısını almaq üçün xarici liderlərin əksəriyyətindən kommersiya reysləri ilə gəlmələri istənilib və onlar mərkəzləşdirilmiş qaydada avtobuslarla daşınacaqlar. Mərasimin keçiriləcəyi Vestminster kilsəsi təxminən 2200 nəfəri qəbul edə bilər.

Bəs, dəfn mərasimində qonaqlar arasında kimlər olacaq?

### Avropanın kral ailələri

Böyük əksəriyyəti II Elizabetin qan qohumları olan Avropa kral ailələrinin üzvlərinin kraliça ilə vidalaşmağa gələcəyi gözlənilir.

Belçika Kralı Filipp və Kraliça Matilda, Hollandiya Kralı Villem-Aleksander, həyat yoldaşı Kraliça Maksima və anası, keçmiş Kraliça Beatriks ilə birlikdə Londona gələcəklərini artıq təsdiqləyiblər.

İspaniya kralı Filipp və xanımı Letisiya, habelə Norveç, Danimarka, İsveç və Monakonun kral ailələrinin nümayəndələri də dəvətləri qəbul ediblər.

### ABŞ-ın indiki və bəzi sabiq prezidentləri dəfndə iştirak edəcəklər

Ağ Ev ABŞ Prezidenti Co Bayden və birinci xanım Cil Baydenin dəfn mərasiminə qatılacağını təsdiqləsə də, administrasiya onların ümumi avtobusda getməyəcəklərini açıqlayıb.

Ölkənin keçmiş lideri Donald Trampın ABŞ nümayəndə heyətində yer almayacağı barədə çox danışılır. Say məhdudiyyəti səbəbindən çətin ki, keçmiş prezidentlər Londona yollana bilsinlər.

Bununla belə bildirilir ki, bəzi eksprezidentlərə, məsələn, Barak Obamaya həyat yoldaşı Mişel Obama ilə birlikdə fərdi dəvətnamələr göndəriləcək.

Yeni Zelandiyanı dəfn mərasimində Baş nazir Casinda Ardern təmsil edəcək.

Dəfn mərasimində kraliçanın rəhbərlik etmiş olduğu Birliyin bütün liderlərinin bir araya gələcəyi gözlənilir.

Avstraliya, Yeni Zelandiya və Kanadanın baş nazirləri artıq dəvətləri qəbul ediblər. Əksər ölkələrin hökumət başçılarına yalnız həyat yoldaşı ilə gəlməyə icazə verilsə də, Kral III Çarlzın dövlət başçısı olduğu Birlik ölkələri üçün bəzi kiçik güzəştlər var. Bu ölkələrin hər birindən hökumət başçısına həyat yoldaşı ilə, general-qubernator həyat yoldaşı ilə, ali komissar (bu ölkələrin Böyük Britaniyadakı səfirləri belə adlanır) və ictimaiyyəti təmsil edən daha 10 qonaq iştirak edə biləcəkdir.

Bəzi məlumatlara görə, dəfn mərasimində uzun illər ölkəyə rəhbərlik edən Banqladeşin Baş naziri Şeyx Hasina və Şri-Lanka Prezidenti Ranil Vikramasinqhe də iştirak edəcəklər. Hindistanı isə ölkə Prezidenti Draupadi Murmu təmsil edəcək.

### Dünyanın digər liderləri

Dəvətləri həmçinin İrlandiyanın Baş naziri Mihol Martin, Almaniya Prezidenti Frank-Valter Ştaynmayer, İtaliya Prezidenti Sercio Mattarella və Avropa Komissiyasının sədri Ursula fon der Lyayen qəbul ediblər.

Cənubi Koreya və Braziliya prezidentləri də dəfn mərasimində iştiraklarını təsdiqləyiblər.

Yaponiya imperatoru Naruhito, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Fransa Prezidenti Emmanuel Makronun bu mərasimdə iştirakı gözlənilir.

2020-ci ilin əvvəlindən bəri ilk dəfə bu həftə ölkədən kənara çıxan Çin Prezidenti Si Cinpin də dəvət edilib. Çin Xarici İşlər Nazirliyi hələ ki Pekinin yüksəksəviyyəli nümayəndə heyətinin göndərilməsi imkanını nəzərdən keçirdiyini bəyan edib.

### Siyahıda yer almayanlar

BBC agentliyinin xəbərinə görə, dəfn mərasimində Rusiya, Belarus, Suriya, Venesuela, Əfqanıstan və Myanmadan heç bir nümayəndənin olmayacağını əminliklə söyləmək olar.

Şimali Koreya və Nikaraqua nümayəndələri dəvət olunur, ancaq dövlət başçıları deyil, yalnız səfirləri səviyyəsində.

Xatırladaq ki, II Elizabet sentyabrın 8-də Şotlandiyanın Balmoral qəsrində vəfat edib. Sentyabrın 19-dək Londondakı Vestminster kilsəsində hər kəs kraliça ilə vidalaşa bilər.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*





# OXUCULARIN NƏZƏRİNƏ!

*"Azərbaycan" qəzetinə 2022-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

Azercell abunəçilərinin nəzərinə

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 21.09.2022-ci il tarixdə gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.


# İrəvan küçələrində toqquşma olub

## Müxalifətin keçirdiyi aksiyada bir neçə etirazçı yerə yıxılan polisi döyüb

**Ermənistanda üç gün davam edən etirazlar fonunda siyasi böhran gündən-günə kəskinləşir. Bu, həm də sosial-iqtisadi vəziyyətin pisləşməsinə səbəb olub. Keçmiş hərbi xunta təmsilçiləri baş nazir Nikol Paşinyanı hakimiyyətdən uzaqlaşdırmaq üçün birləşsə də, hələ ki heç bir nəticəyə nail ola bilməyib. Müxalifətçilər etirazlarına əsas kimi hakimiyyətin yürütdüyü uğursuz siyasəti göstərirlər. Onlar baş nazirin xarici siyasətinin ölkəni uçuruma sürüklədiyini, xalqı dövlətçiliyin itirilməsi ilə üz-üzə qoyduğunu iddia edirlər.**

Radikal müxalifətçilər aksiyalarda təxribatçı çağırışlarla Azərbaycan ərazisində mövcud olmuş keçmiş separatçı rejimə dəstəklərini ifadə edirlər. Dünən İrəvanda hökumət binası yaxınlığında etiraz aksiyası keçirən müxalifət nümayəndələri ilə polislər arasında toqquşma olub. Bir neçə etirazçı yerə yıxılan polisi döyüb.

Bu arada dünya iqtisadiyyatında yaranan qeyri-müəyyənliyin və çətinliklərin digər ölkələrlə müqayisədə Ermənistana daha çox dağıdıcı təsir göstərdiyi qeyd edilir. Xüsusən Rusiyada rublun məzənnəsinin aşağı düşməsi Ermənistan iqtisadiyyatı üçün də böyük fəlakət sayılır. Əvvəlki illərlə müqayisədə 2021-ci ildə Ermənistanda xüsusilə ərzaq məhsullarının qiymətlərində 11,5 faiz artım qeydə alınıb. İnflyasiya ilə yanaşı, insanların gəlirləri mütənasib şəkildə artmayıb və bu, erməni əhalisini daha da yoxsullaşdırıb. Ötən ilin inflyasiyasını təkcə dünya bazarı deyil, həm də daxili amillər şərtləndirib. Ermənistan hökuməti kənd təsərrüfatı istehsalı və emalı kreditləri üzrə faiz dərəcələrinin subsidiyalaşdırılması üçün milyardlarla dram ayırsa da, 2021-ci ildə aqrar sektorda xeyli azalma müşahidə olunub.

"4rd.am" saytı yazıb ki, Ermənistana xaricdən göndərilən pul axını xeyli azalıb. Bildirilir ki, bu ilin iyul ayında fiziki şəxslərin adına xaricdən banklar vasitəsilə daxil olan köçürmələrin xalis axını 135 milyon 396 min dollar təşkil edib. Qeyd edək ki, əvvəlki ayla müqayisədə Ermənistana göndərilən xarici pul köçürmələrinin xalis axını 231 milyon 153 min dollar azalıb. Məqalədə deyilir: "Beləliklə, iyulda transferlərin iyun, may və aprel ayları ilə müqayisədə azalmağa davam etdiyini qeyd edə bilərik. Əlavə olaraq qeyd edək ki, Rusiya Federasiyasından xalis daxilolma, başqa sözlə, Ermənistana gələn və qalan məbləğ iyulda 415 milyon 842 min dollar təşkil edib. İyun ayı ilə müqayisədə bu göstərici azalıb. Aydın məsələdir ki, bu vəsaitlərin böyük hissəsi xaricdə işləyən ermənilər tərəfindən köçürülür və göndərilən pullar onların burada yaşayan ailələrinin əsas dolanışıq vasitəsidir. Bu gün Rusiyaya xaricə işləməyə getmiş qohumlarına Ermənistandan pul göndərən xeyli vətəndaş var. Əslində, iyul ayında Rusiyadan Ermənistana pul köçürmələri 4 milyon 703 min dollar azalıb. Yeri gəlmişkən, ABŞ-dan Ermənistana daxil olan pul köçürmələrinin axını artıb, bu rəqəm iyunda 35 milyon 353 min dollar idisə, iyulda 38 milyon 880 min dollar olub".

Bütövlükdə bütün bunlar Ermənistanın böyük tənəzzül yaşadığını göstərir.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# Dumanlı hava şəraiti ilə əlaqədar bəzi avtomobil yollarında görmə məsafəsi məhdudlaşacaq



Sentyabrın 18-də gecə və axşam saatlarında duman ilə əlaqədar olaraq Bakı-Quba, Quba-Xaçmaz, Quba-Qusar, Gəncə-Daşkəsən, Şəmkir-Gədəbəy, Şuşa-Füzuli, Yevlax-Xocalı-Laçın, Gəncə-Kəlbəcər-Laçın, Ağdam-Füzuli-Horadiz, Həkəri-Zəngilan, Bərdə-İstisu, Xaldan-Mingəçevir, Ağsu-Kürdəmir-Bəhramtəpə, Bəhramtəpə-Biləsuvar, Füzuli-Cəbrayıl-Mahmudlu, Göyçay-Ucar, Xankəndi-Xocavənd, Naxçıvan-Şahbuz, Salyan-Neftçala, Masallı-Yardımlı, Lənkəran-Lerik magistral avtomobil yollarının bəzi hissələrində görmə məsafəsi 500-800 metrədək məhdudlaşacaq.

Bu barədə AZƏRTAC-a Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən məlumat verilib.








BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 6473
Sifariş 2594
Qiyməti 40 qəpik